## Ukraynada əsirlikdə olan 20 hərbçi Rusiyaya qaytarılıb



**Ukraynanın əsirliyində olan 20 nəfər Rusiya Silahlı Qüvvələrinin hərbçisi azad edilib.**

Bu barədə Rusiya Müdafiə Nazirliyi məlumat verib.

Azad olunmuş şəxslərin hər birinə lazımi psixoloji və tibbi yardım göstərilir.

Onlar qısa zaman ərzində müalicə və reabilitasiya olunmaq üçün Rusiya Müdafiə Nazirliyinin tabeliyində olan tibb müəssisələrində yerləşdiriləcəklər.

## Kəlbəcər istiqamətində mövqelərimiz atəşə tutulub



Oktyabrın 13-ü saat 15:15-dən saat 15:50-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca və İstisu yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Ordumuzun Kəlbəcər rayonunun Əlibayramlı və İstisu yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan istifadə etməklə fasilələrlə atəşə tutub. Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən məlumat verilib.

Azərbaycan Ordusunun qeyd olunan istiqamətlərdə yerləşən bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.


№ 187 (5708), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 14 oktyabr 2022-ci il (cümə)




## Regionlarda sosial evlərin tikilməsi xoş xəbərdir

### Bu, həm paytaxtdakı sıxlığı azaldar, həm də regionların inkişafına təkan verər

**Şirvan şəhərində "sosial evlər"in tikilməsi planlaşdırılıb.**

Bununla bağlı Mənzil İnşaatı Dövlət Agentliyinə məxsus "MİDA" MMC təkliflər sorğusu elan edib. Məlumata görə, bunun üçün Şirvan şəhərinin Naxçıvan küçəsində 8,1 hektar ərazi nəzərdə tutulub.

Bildirilir ki, sözügedən ərazidə şəhərsalma üzrə əsaslandırılma, tikinti layihəsinin hazırlanması və müəllif nəzarəti işləri üzrə sorğuda iştirak etmək istəyənlər təkliflərini oktyabrın 27-si, saat 17:00-a qədər şirkətə təqdim edə bilər.

Qeyd edək ki, ölkədə gəlir səviyyəsi orta və aşağı olan vətəndaşlar üçün mənzillərin tikintisinə bir neçə il əvvəl başlanılıb.

(səh.6)



## Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası üzrə Katiblik yaradılıb

**Nazirlər Kabineti Dövlət sərhədinin delimitasiyası üzrə Katiblik yaradılması barədə qərar verib.**

Qərar "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 23 may tarixli 3272 nömrəli Sərəncamının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə hazırlanıb.

Qərara əsasən Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının cari fəaliyyətinin təşkili məqsədilə Komissiyanın Katibliyinin yaradılması, fəaliyyət istiqamətləri və təşkili müəyyən edilib.

## İlin sonuna barış gözlənilir

### Ermənistanın manipulyasiya imkanları tamam zəifləyib




**Azərbaycanla Ermənistan arasında sülh sazişi ilin sonuna qədər imzalana bilər.**

Bu sözləri Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan ABŞ Dövlət katibi Entoni Blinken və prezidentin təhlükəsizlik üzrə müşaviri Ceyk Sallivanın vasitəçiliyi ilə baş tutan görüşlər haqda danışarkən deyib. Onun sözlərinə görə, görüşlərdə sülh sazişi ilə bağlı fikir bölüşülüb:

"Yeni sülh sazişinin tezləşdirilməsi və ilin sonuna qədər bağlanması ilə bağlı müzakirələr aparıldı. Həmçinin delimitasiya məsələsi də gündəmdə oldu". Qriqoryan qeyd edib ki, sülh müqaviləsi və delimitasiya bir-biri ilə bağlıdır və ilin sonuna kimi delimitasiya prosesinin aparılması üçün razılıq var...

(səh.3)

# Bakı uzunmüddətli sülhə hədəflənib

### Prezident İlham Əliyev: "Azərbaycan regionda sülhə nail olmaq üçün kifayət qədər konstruktiv tezislər təklif edib"



**Dünən Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə görüşü olub. Bu barədə Prezidentin Mətbuat Xidməti məlumat yayıb.**

Danışıqlar zamanı Prezident Vladimir Putin deyib ki, iki ölkə arasında çox müxtəlif istiqamətlər üzrə kifayət qədər geniş qarşılıqlı fəaliyyət mövcuddur. Rusiya Azərbaycanın aparıcı iqtisadi-ticari tərəfdaşlarından biri kimi qalmaqdadır və əmtəə dövriyyəsi artır:

"Məncə, ötən il 14 faiz artıb, bu ilin ilk 7 ayı ərzində 7 faizdən çox artıb. Bizim iqtisadi operatorlar Azərbaycan iqtisadiyyatına 4,5 milyard dollar sərmayə yatırıblar.

Hökumətlərarası Komissiyanın həmsədrləri müntəzəm görüşürlər. İşlər Sizin təklif etdiyiniz plan üzrə gedir. Düşünürəm ki, 2024-cü il də daxil olmaqla, Sizin tərəfinizdən təklif olunan bir sıra perspektivli, maraqlı layihələr üzrə gedir.

(səh.2)

# Kasıbçılığın üzü qara olsun!

### Marketlərdə əlini toyuq ətinə uzadanların sayı artıb



**Sümüklü dana ətinin 15, sümüksüz dana ətinin qiymətininsə 17 manata qalxması əhalini toyuq ətinə üstünlük verməyə vadar edib.**

Marketlərdə əlini toyuq ətinə uzadanların sayı da getdikcə artır. Amma toyuq ətinə tələbatın artması bu məhsulun da qiymətinə təsir edir.

Dönərlik toyuq ətinin kiloqramının 5-5.50 qəpikdən 6 manata qalxdığı məlumdur. Evdar olmayan qadınların toyuq ətinə üstünlük verməsinin əsas səbəbi tez hazırlanmasıdır, lakin evdar qadınlar da toyuq ətinə üstünlük verməyə başlayıb artıq.

(səh.5)



## İran Azərbaycanla sərhəddə irimiqyaslı hərbi təlim keçirməyi planlaşdırır

### Təlimə regional Aşura qərargahı komandanlıq edəcək

**İran İnqilab Keşikçiləri Qvardiyası (SEPAH) yaxın günlərdə ölkənin şimalında, Araz çayı sahilində, Azərbaycan Respublikası ilə sərhəddə irimiqyaslı hərbi təlim keçirməyi planlaşdırır.**

"Report" İSNA-ya istinadən xəbər verir ki, bu barədə SEPAH-ın Quru Qoşunlarının komandanı briqada generalı Məhəmməd Pakpur məlumat verib. Onun sözlərinə görə, təlimə regional Aşura qərargahı komandanlıq edəcək. M.Pakpur bildirib ki, hərbi manevr təqvimə uyğun olaraq döyüş hazırlığının artırılması və yoxlanılması məqsədilə keçirilir.

## Vəfat edən olmayıb

### Daha 81 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 81 yeni yoluxma faktı qeydə alınıb, 48 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən vəfat edən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 822 427 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 811 998 nəfər müalicə olunaraq sağalıb, 9 931 nəfər vəfat edib, aktiv xəstə sayı 498 nəfərdir.

*Ölkədə son sutka ərzində 2 443, hazırkı dövrədək isə 7 282 773 test aparılıb.*

## Sumqayıtda sexdə yanğın söndürülüb



**Sumqayıtda sexdə baş vermiş yanğın söndürülüb.**

Bu barədə FHN-in Mətbuat xidmətindən bildirilib.

Qeyd edilir ki, Fövqəladə Hallar Nazirliyinin "112" qaynar telefon xəttinə Sumqayıt şəhəri, 41-ci məhəllə, Çerkassi küçəsində yerləşən sexdə yanğın baş verməsi barədə məlumat daxil olub və dərhal əraziyə FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin yanğından mühafizə bölmələri cəlb olunub.

Hadisə yerində əməliyyat şəraiti qiymətləndirilərkən yanğının şüşə istehsalı sexində baş verdiyi müəyyən olunub. Yanğından mühafizə bölmələrinin operativ fəaliyyəti sayəsində yanğın genişlənməsinə imkan verilmədən söndürülüb.



## Ukraynanı İranın dronları sarsıtdı

### Qərb Tehranın Rusiyaya dəstəyini cavabsız qoymayacaq

(səh.5)



## "Nazirin müəllimləri gözdən salması təhlükəli tendensiyadır"

Kamran Əsədov: "Son 10 il ərzində orta məktəblərə 80 mindən çox müəllim işə qəbul edilib. Deməli, sizin imtahanlar doğru deyil"

(səh.6)

# Bakı uzunmüddətli sülhə hədəflənib

## Prezident İlham Əliyev: "Azərbaycan regionda sülhə nail olmaq üçün kifayət qədər konstruktiv tezislər təklif edib"



**Dünən Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə görüşü olub. Bu barədə Prezidentin Mətbuat Xidməti məlumat yayıb.**

Danışıqlar zamanı Prezident Vladimir Putin deyib ki, iki ölkə arasında çox müxtəlif istiqamətlər üzrə kifayət qədər geniş qarşılıqlı fəaliyyət mövcuddur. Rusiya Azərbaycanın aparıcı iqtisadi-ticari tərəfdaşlarından biri kimi qalmaqdadır və əmtəə dövriyyəsi artır:

"Məncə, ötən il 14 faiz artıb, bu ilin ilk 7 ayı ərzində 7 faizdən çox artıb. Bizim iqtisadi operatorlar Azərbaycan iqtisadiyyatına 4,5 milyard dollar sərmayə yatırıblar.

Hökumətlərarası Komissiyanın həmsədrləri müntəzəm görüşürlər. İşlər Sizin təklif etdiyiniz plan üzrə gedir. Düşünürəm ki, 2024-cü il də daxil olmaqla, Sizin tərəfinizdən təklif olunan bir sıra perspektivli, maraqlı layihələr üzrə gedir. Təbii ki, biz regionda vəziyyətin nizamlanması ilə bağlı məsələləri də həmişə diqqətdə saxlayırıq. Ümidvaram ki, bütün bu məsələlər üzrə bir daha danışmaq fürsətindən də istifadə edəcəyik və mövqelərimizi dəqiqləşdirəcəyik".

Prezident İlham Əliyev isə öz növbəsində vurğulayıb ki, ölkələrimiz arasında münasibətlər ən yüksək səviyyəyə - müttəfiqlik qarşılıqlı fəaliyyət səviyyəsinə çatıb və biz bir çox məsələlər üzrə fəal surətdə irəliləyirik:

"Siz qeyd etdiniz, təsdiqləmək istəyirəm ki, iqtisadi-ticari əlaqələr üzrə əmtəə dövriyyəsində artım var. İndi müəyyən etdiyimiz və bundan əvvəlki görüşlərdə razılaşdırdığımız layihələr bizə qarşılıqlı ticarəti daha da artırmaq imkanı verəcək. Həmçinin nəqliyyat, energetika sahələrində və humanitar sahədə əməkdaşlıqla bağlı məsələlər. Biz bütün istiqamətlər üzrə müsbət dinamika görürük. Lakin, əlbəttə, hər bir görüşdə biz regionumuzda təhlükəsizliyə, sülhə nail olmaq məsələlərindən yan keçmirik. Biz bu gün bu barədə də danışacağıq. Biz uzunmüddətli sülhə hədəflənmişik. Biz hesab edirik ki, nəhayət bu sülhə nail olmaqdan ötrü öz tərəfimizdən kifayət qədər konstruktiv tezislər təklif etmişik".

# "Fransa Prezidentinin bəyanatları yolverilməz və qəbuledilməzdir"

## Mariya Zaxarova: "Parisin Moskvanın Bakı və İrəvanla münasibətlərinə zərbə vurmaq cəhdləri uğursuzluğa məhkumdur"



**Parisin Moskvanın Bakı və İrəvanla münasibətlərinə zərbə vurmaq cəhdləri uğursuzluğa məhkumdur və bu, yalnız Fransanın bölgədəki nüfuzunun daha da aşağı düşməsinə gətirib çıxaracaq.**

"Report"un Rusiya bürosunun məlumatına görə, bu barədə Rusiya Xarici İşlər Nazirliyinin sözçücü Mariya Zaxarovanın bəyanatında deyilir.

Onun sözlərinə görə, Fransa Prezidenti Emmanuel Makronun Moskvanın guya Cənubi Qafqazda sabitliyi pozmağa çalışması ilə bağlı bəyanatları yolverilməz və qətiyyən qəbuledilməzdir: "Fransa Prezidentinin absurd uydurmaları Parisin regionda davamlı sülhün bərqərar olmasına maraq göstərmədiyini nümayiş etdirir və bu ölkənin konstruktiv rol oynaya bilməsini şübhə altına alır".

# Ədalət Vəliyev İqbal Ağazadə ilə görüşüb

## İqtidar-müxalifət dialoqunun inkişaf perspektivləri müzakirə olunub



**Oktyabrın 13-də Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Azərbaycan Ümid Partiyasının sədri İqbal Ağazadə ilə görüşüb.**

Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən "Şərq"ə bildiriblər ki, görüş zamanı ölkədə aparılan iqtidar-müxalifət dialoqu, siyasi islahatlar, həmçinin siyasi plüralizm barədə söz açan şöbə müdiri Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə siyasi dialoq mədəniyyətinin inkişafının uğurla davam etdirildiyini, aparılan çoxşaxəli islahatların müvəffəqiyyətlə həyata keçirildiyini, bir çox məsələlərlə bağlı qanunvericilik və institusional tədbirlərin görüldüyünü diqqətə çatdırıb. Ölkədə aparılan iqtidar-müxalifət dialoquna töhfə vermək məqsədilə müxtəlif siyasi partiyaların fəaliyyəti üçün geniş şərait yaradılmasından bəhs edən Administrasiya rəsmisi ölkədə sabit siyasi mühitin dəstəklənməsi və siyasi partiyaların bölgələrdə də normal fəaliyyətinin təmin olunması üçün şöbə tərəfindən mütəmadi qaydada iş aparıldığını vurğulayıb.

Görüş zamanı şöbə müdiri son dövrdə 11 yeni siyasi partiyanın dövlət qeydiyyatına alınmasını, partiyaların qərargahlarla təmin edilməsini, fəaliyyətlərinin legitimləşdirilməsini, ölkədə fəaliyyət göstərən media resurslarına çıxış imkanlarının genişləndirilməsini, milli və siyasi həmrəyliyin təmin olunmasını qeyd edib və bunu iqtidar-müxalifət dialoqunun real nəticələri kimi dəyərləndirib.

İqtidar-müxalifət dialoqu çərçivəsində görüşə dəvət edildiyi üçün təşəkkürünü bildirən Azərbaycan Ümid Partiyasının sədri İqbal Ağazadə yeni siyasi konfiqurasiyanın inkişafı istiqamətində görülən işlərlə bağlı öz fikirlərini bölüşüb. Ölkədə aparılan siyasi islahatlar, siyasi partiyaların fəaliyyəti barədə söz açan partiya sədri bu gün ölkədə yaradılmış yeni siyasi münasibətlər sisteminin gələcəkdə dayanıqlı siyasi sistemin formalaşmasına şərait yaradacağını qeyd edib.

Sonda tərəflər ölkəmizdə iqtidar-müxalifət dialoqunun inkişaf perspektivləri, Vətən müharibəsindən sonra yeni geosiyasi reallıqlar, Qarabağda bərpa-quruculuq işləri və başqa məsələlər haqqında müzakirələr aparıblar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin son günlər Çexiya, Rusiya, Qırğızıstan və Qazaxıstana işgüzar səfərləri yüksək qiymətləndirilib və bunun Azərbaycanın dünya siyasətində artan nüfuzunun göstəricisi olduğu vurğulanıb.

**Aygün**

**"Azərbaycan Ordusu Ermənistanın hərbi təxribatının qarşısını almaq üçün qətiyyətli əks-həmlə əməliyyatına başlamağa məcbur oldu".**

Bunu Azərbaycan Prezidenti İlham Əliyev Astanada keçirilən AQFET-in VI Zirvə Toplantısında çıxışı zamanı deyib. Dövlət başçısı bildirib ki, Qarabağ münaqişəsinin həll olunmasına baxmayaraq, Ermənistan sərhəddə təxribatlar törətməkdə davam edir, bunlardan sonuncusu isə bu ilin sentyabr ayında törədilib: "Azərbaycan Silahlı Qüvvələri Ermənistanın hərbi təxribatının qarşısını almaq üçün qətiyyətli əks-həmlə əməliyyatına başlamağa məcbur oldu. Bütün bu təxribatlara görə məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.




# "İtkin düşənlərin taleyinə aydınlıq gətirilməlidir"

## Prezident İlham Əliyev: "Ermənistan kütləvi məzarlıqların dəqiq yerləri barədə məlumat təqdim etməlidir"

Ermənistan tərəfindən törədilmiş etnik təmizləmə nəticəsində bir milyondan çox azərbaycanlının 30 il ərzində əziyyət çəkməsinə, misli görünməmiş vəhşiliyə, yüzlərlə şəhər və kəndimizin dağıdılmasına baxmayaraq, Azərbaycan Ermənistana qarşılıqlı şəkildə bir-birinin ərazi bütövlüyünün tanınması əsasında sülh sazişi imzalamağı təklif edib".




**"Biz keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı prosesinə başlamışıq"**

Prezident bildirib ki, minalardan təmizlənmə ilə paralel, indi Azərbaycan həm də işğaldan azad olunmuş ərazilərdə öz resursları hesabına genişmiqyaslı quruculuq işləri aparır: "Biz, həmçinin keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı prosesinə başlamışıq. "Böyük Qayıdış" adlanan proqram artıq başlayıb. Azərbaycan dünyada mina ilə ən çox çirklənmiş ölkələr sırasındadır. İlkin hesablamalara görə, Ermənistan işğal zamanı bir milyondan çox mina basdırıb". Dövlət başçısı qeyd edib ki, İkinci Qarabağ müharibəsinin başa çatmasından keçən iki il ərzində 250-dən çox Azərbaycan vətəndaşı mina partlayışları zamanı həlak olub və ya ağır yaralanıb: "Beynəlxalq mütəxəssislərin hesablamalarına görə, Azərbaycana ərazilərin minalardan təmizlənməsi məsələsini həll etmək üçün təxminən 30 il və 25 milyard ABŞ dolları lazımdır".

Prezident qeyd edib ki, Ermənistan itkin düşənlərin taleyi və kütləvi məzarlıqların dəqiq yerləri barədə məlumat təqdim etməlidir: "Biz iki ilə yaxındır ki, bu məlumatı tələb edirik, ancaq Ermənistan hökuməti bunu Azərbaycanla bölüşməkdən imtina edir və bununla da özünü Ermənistanın əvvəlki rejimlərinin cinayətkar liderləri ilə assosiasiya edir".

**"Azərbaycana qarşı müharibə cinayətləri törədənlər Ermənistan cəmiyyətində qəhrəman kimi təqdim edilib"**

Prezident bildirib ki, Azərbaycana qarşı müharibə cinayətləri törədənlər Ermənistan cəmiyyətində "qəhrəman" kimi təqdim edilib: "2 il öncə İkinci Qarabağ müharibəsində əldə edilən qələbə nəticəsində Azərbaycan öz ərazilərini Ermənistanın işğalından azad etdi, üç onillik boyunca davam etmiş Qarabağ münaqişəsinə son qoydu, ədaləti təmin etdi və BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş Ermənistan qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən qeyd-şərtsiz geri çəkilməsini tələb edən 4 qətnaməsinin həyata keçirilməsini icra etdi. Təxminən 30 illik işğal boyunca bizim kəndlərimiz, mədəni və dini abidələrimiz, məscidlərimiz Ermənistan tərəfindən məqsədyönlü şəkildə dağıdılıb, murdarlanıb və talan edilib. Hətta məscidlər heyvanların saxlanılması üçün tövlə kimi istifadə edilib. Təəssüf ki, 3 onillik boyunca Ermənistan cəmiyyətinin bu cür vandalizmə qarşı çıxmasını biz heç vaxt eşitmədik, əksinə, bu dağıdıcılıq və erməni vandallar, müharibə cinayətkarları vəsf edildi və hətta "qəhrəmanlar" kimi təqdim edildi".

**"Azərbaycan Qazaxıstandakı islahatları dəstəkləyir"**

Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin liderliyi altında Qazaxıstanda həyata keçirilən siyasi və sosial-iqtisadi islahatları dəstəkləyir: "Prezident Tokayevin bu yaxınlarda Azərbaycana uğurlu rəsmi səfəri çərçivəsində biz ikitərəfli əlaqələrin gündəliyinin cari məsələlərinin məhsuldar müzakirəsini etdik. Azərbaycan prezidenti Tokayevin liderliyi altında Qazaxıstanda siyasi və sosial-iqtisadi islahatları dəstəkləyir".

**İsmayıl**

# Biz terrorçu bir toplumla üz-üzəyik

## Xaricdəki bütün diplomatik korpuslarımızın təhlükəsizliyi ciddiyə alınmalıdır



**Azərbaycanın ABŞ-dakı səfirliyinin xidməti avtomobilinə atəş açılması ölkə ictimaiyyətinin narahatlığına və narazılığına səbəb olub. Çünki dünyanın müxtəlif ölkələrindəki diplomatik nümayəndəliklərimizin təhlükəsizliyinin təmin edilməsi Azərbaycanın prioritet məsələlərindən biridir.**

Ölkə rəsmiləri və ictimaiyyət nümayəndələri hesab edirlər ki, son zamanlar xarici ölkələrdəki erməni radikalları tərəfindən Azərbaycanın diplomatik nümayəndəliklərinə qarşı hücumların sistemli xarakter daşıması təhlükəli tendensiyaya çevrilə bilər. Həmçinin, vurğulanır ki, xarici ölkələrdəki diplomatik nümayəndəliklərimizin təhlükəsizliyinin təmin edilməsi ev sahibi ölkəsinin beynəlxalq konvensiya ilə üzərinə götürdüyü öhdəliyidir.

**Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə "Şərq"ə bildirib ki, ABŞ-dakı diplomatik korpusumuza qarşı hücumlar yolverilməzdir. Partiya rəhbəri vurğulayıb ki, bu hadisə ermənilərin mütəmadi həyata keçirdikləri vandalizm aktlarının davamıdır:** "44 günlük Vətən müharibəsi dövründə və savaşdan sonra Amerikanın müxtəlif yerlərində, Los-Ancelesdə, Avropa ölkələrində Azərbaycan səfirliklərinə, konsulluqlarına qarşı demarş həyata keçirilməyə başlandı. Bu ilin avqust ayında Böyük Britaniyada, Londondakı səfirliyimizə hücum olmuşdu. Hadisənin dini radikal qruplar tərəfindən törədilməsi görüntüsü yaradılsa da, bunun kökündə erməni izi var idi. Sentyabr ayında ard-arda Vaşinqtonda, Parisdə və Brüsseldə diplomatik nümayəndəliklərimiz önündə aksiyalar keçirildi. Dəfələrlə həmin ölkələrə nota verilsə də, gördüyümüz kimi nəticə ürəkaçan deyil".

A.Əlizadə vurğulayıb ki, ötən əsrin 70-ci illərində Avropanın bir sıra ölkələrində Türkiyə səfirliklərinə qarşı sui-qəsd həyata keçirilib. Nəticədə 24 türk diplomatı qətlə yetirilib: "O baxımdan indiki hadisələr bizi çox narahat edir. Gələcəkdə xarici ölkələrdəki səfirlərimiz, daimi nümayəndələrimiz də teraktlara məruz qala bilərlər. 1961-ci il diplomatik əlaqələr haqqında Vyana Konvensiyası var və adıçəkilən ölkələr də həmin sənədə imza atıblar. Konvensiyaya uyğun olaraq istənilən dövlət etimadnaməsini qəbul etdiyi ölkənin diplomatlarının təhlükəsizliyinə təminat verməlidir. Görünən odur ki, kifayət qədər nüfuzlu ölkələr bizim diplomatların təhlükəsizliyini qoruya bilmirlər. Nəticədə səfirliyimizin təmsilçiləri öz gücləri hesabına diplomatik nümayəndəliyi qorumaq məcburiyyətində qalırlar. Əgər həmin ölkələr diplomatların təhlükəsizliyini təmin etmək iqtidarında deyilsə, bilərək, yaxud bilməyərək bu sahədə boşluq yaradırlarsa, o zaman Azərbaycan hökuməti diplomatların təhlükəsizliyini gücləndirməlidir. Nəzərə alaq ki, biz terrorçu bir toplumla üz-üzəyik. Ermənilər illərdir terrorçu təşkilatlar formalaşdırıb və terroru dövlət siyasətinə çeviriblər".

**İsmayıl Qocayev**



# AYB-nin qurultayı oktyabrın 26-da keçiriləcək

## Toplantı Akademik Milli Dram Teatrında gerçəkləşəcək

**Azərbaycan Yazıçılar Birliyinin XIII Qurultayı 26 oktyabr saat 10-da öz işinə başlayacaq.**

Bu barədə Trend-ə AYB-dən məlumat verilib.

Bildirilib ki, qurultay Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında keçiriləcək.

Azərbaycan Yazıçılar Birliyinin dəvətilə Qurultayda Türkiyə, Rusiya, Litva, İsrail, Pakistan, Gürcüstan, Almaniya, İraq, Belarus və İrandan iyirmidən çox qonaq iştirak edəcək. 26 oktyabr saat 9-da Fəxri Xiyabanda Ulu öndər Heydər Əliyevin və Azərbaycan yazıçılarının məzarı, daha sonra Şəhidlər Xiyabanı ziyarət ediləcək. Qurultay nümayəndlərinin siyahısı "Ədəbiyyat qəzeti"nin 22 oktyabr tarixli buraxılışında nəşr ediləcək.

# Putin: "Taxıl alan ölkələr Ərdoğana təşəkkür etməlidir"



**"İstanbul sazişinə görə taxıl alan ölkələr Ərdoğana təşəkkür etməlidir".** APA-nın Moskva müxbirinin məlumatına görə, bunu Rusiya prezidenti Vladimir Putin türkiyəli həmkarı Rəcəb Tayyip Ərdoğanla Astanada görüşündə bildirib. "Məhz sizin sayənizdə Ukrayna taxılının xarici bazarlara çıxarılması ilə bağlı sazişi həyata keçiririk. Düşünürəm ki, həmin məhsulları alan ölkələr sizə təşəkkür etməlidirlər", - deyə Rusiya prezidenti vurğulayıb. Putin İstanbul sazişi üzrə Ukrayna taxılın çox az hissəsinin kasıb ölkələrə getməsindən təəssüfləndiyini də qeyd edib.



# İlin sonuna barış gözlənilir

## Ermənistanın manipulyasiya imkanları tamam zəifləyib

İsmayıl Qocayev

**Azərbaycanla Ermənistan arasında sülh sazişi ilin sonuna qədər imzalana bilər. Bu sözləri Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan ABŞ Dövlət katibi Entoni Blinken və prezidentin təhlükəsizlik üzrə müşaviri Ceyk Sallivanın vasitəçiliyi ilə baş tutan görüşlər haqda danışarkən deyib. Onun sözlərinə görə, görüşlərdə sülh sazişi ilə bağlı da fikir bölüşülüb:**

”Yəni sülh sazişinin tezləşdirilməsi və ilin sonuna qədər bağlanması ilə bağlı müzakirələr aparıldı. Həmçinin delimitasiya məsələsi də gündəmdə oldu”. Qriqoryan qeyd edib ki, sülh müqaviləsi və delimitasiya bir-biri ilə bağlıdır və ilin sonuna kimi delimitasiya prosesinin aparılması üçün razılıq var: ”Deyə bilərik ki, Ermənistanla Azərbaycan arasında delimitasiya prosesi başa çatıb. Qalır qarşılıqlı razılığa gəlmək ki, iki ölkə arasında sərhədlə bağlı görülən işləri əsas götürək”.

Xarici işlər naziri Ceyhun Bayramov da deyib ki, Azərbaycan tərəfinin ilkin təqdim etdiyi 5 baza prinsipi əsasında daha genişlənmiş elementlər Ermənistan tərəfinə təqdim edilib. Qarşı tərəf isə bununla bağlı vaxt verilməsini xahiş edib. Nazir bildirib ki, hələ ki, Ermənistan tərəfindən bununla bağlı reaksiyası yoxdur: ”Bizdə tam məlumat yoxdur ki, növbəti görüş əsnasında onunla bağlı Ermənistanın hər hansı bir reaksiyası olacaq, yoxsa onlara əlavə vaxt lazımdır. Ancaq ümumilikdə bir neçə istiqamət var ki, onların hər birinin irəli aparılması bizim üçün önəmlidir. İlk növbədə ikitərəfli əsasda olan sülh müqaviləsi mövzusu, kommunikasiyaların açılması, delimitasiya mövzuları hər dəfə görüş əsnasında müzakirə edilir. Azərbaycan öz məlum prinsiplərini çatdırır və bu istiqamətdə işləri irəli aparır”.

> “Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması Brüsselin vasitəçiliyi ilə reallaşacaq”

**Politoloq Məhəmməd Əsədullazadə deyib ki, Ermənistan 12-14 sentyabr döyüşlərindən nəticə çıxarıb və Nikol Paşinyan Qarabağı Azərbaycanın ərazi bütövlüyü çərçivəsində tanıyıb.** Analitik vurğulayıb ki, Avropa İttifaqının vasitəçiliyi ilə yekun Bəyannamədə Azərbaycanın beş təməl prinsipi, ölkəmizin ərazi bütövlüyü Ermənistan tərəfindən rəsmən tanınıb: ”Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıyırsa, deməli, Qarabağ daxil olmaqla bəyannaməyə imza atıb. Paşinyan bir neçə gün bundan əvvəl Qarabağla bağlı verdiyi açıqlamada onun beynəlxalq birlik tərəfindən Azərbaycan ərazisi kimi tanıdığını vurğulamışdı. Bundan əvvəl Ermənistanın baş naziri Qarabağ məsələsini ərazi bütövlüyü çərçivəsindən çıxarırdı. O da məlumdur ki, Rusiyanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında iki bəyannamə imzalanıb. Amma Ermənistan bu bəyannamələrə əməl etmir. Lakin mövcud vəziyyətdə Ermənistan tərəfinin manipulyasiya imkanları zəifləyib”. İrəvanın Kremldən uzaqlaşmaq kursu götürdüyünü deyən ekspertin fikrincə, hazırda Rusiyanın Ermənistana ciddi təzyiqlər etməsi onun imkanları xaricindədir: ”Paşinyanın Zəngəzur dəhlizinin açılması ilə bağlı mövqeyində isə rəsmi dəyişiklik olmayıb. Ermənistanın baş naziri Zəngəzur dəhlizində Rusiya hərbçilərinin yerləşdirilməsinə qarşıdır. Düşünürəm ki, Praqada imzalanan bəyannamədən sonra rəsmi Bakının Ermənistanın Qarabağı Azərbaycanın ərazi bütövlüyü çərçivəsində tanıdığını rəsmən elan etməsi lazımdır. Ermənistan tərəfi də bu barədə ictimaiyyətinə açıqlama verməlidir. Bütün bunları nəzərə alaraq, deyə bilərəm ki, Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması Brüsselin vasitəçiliyi ilə reallaşacaq”.

# "Audiovizual media mühitində universal jurnalist"

## Jurnalistlər üçün keçirilən təlimlər yekunlaşıb





**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi və ADA Universitetinin birgə təşkilatçılığı ilə telejurnalistlər üçün ”Audiovizual media mühitində universal jurnalist” mövzusunda keçirilən təlimlər yekunlaşıb.**

Dünən ADA Universitetində təlimlərin yekunlaşması və iştirakçılara sertifikatların təqdim edilməsi mərasimi keçirilib.

Mərasimdə çıxış edən Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov bildirib ki, Azərbaycanda bu cür təlimlərin keçirilməsi davamlı olacaq. O qeyd edib ki, Azərbaycan mətbuatının ehtiyacları qiymətləndirilərək ona uyğun bu cür təlimlər keçirilir. ”Çalışırıq ki, Azərbaycan mətbuatının ümumi ehtiyaclarını müəyyən edərək bu cür təlimlər keçirək. Ümid edirəm ki, bu təlimlər də jurnalistlərin peşəkarlığının artırılmasına öz töhfəsini verəcək”, - deyə Ə.İsmayılov qeyd edib.

Təlimlərə Azərbaycan televiziyalarında fəaliyyət göstərən jurnalistlər cəlb edilib.

Keçirilən təlimlərin məqsədi televiziyada xəbər istehsalının təkmilləşdirilməsi, rəqəmsallaşmanın stimullaşdırılması, audiovizual istiqamətdə xarici bilik və təcrübələrin tətbiqinin genişləndirilməsi və daha keyfiyyətli məzmunun yaradılmasına nail olmaqdır.

4 gün müddətində jurnalistlərə ”Əl-Cəzirə” Media Şəbəkəsinin telejurnalisti Mohamed Elatyeb tərəfindən ”mobil jurnalistika”, ”video jurnalistika”, ”televiziya jurnalistikası”, təkbaşına tam televiziya məzmununun hazırlanması üçün öyrənilməli və əldə edilməli olan bacarıqlar, xəbər otaqlarının işləmə mexanizmi, televiziya istehsalı və xəbər dünyasına daxil olan yeni proqram təminatları və s. mövzularda təlimlər keçirilib, interaktiv müzakirə sessiyaları olub, jurnalistləri maraqlandıran suallar cavablandırılıb.

Sonda təlim iştirakçılarına sertifikatlar təqdim olunub.

Telejurnalistlər üçün keçirilən ”Audiovizual media mühitində universal jurnalist” təlim proqramının media sahəsində yeni trendin başlanğıcına, keyfiyyətli kontent yaradılmasına, jurnalistlərin peşəkar inkişafına, xarici təcrübəyə əsaslanan nəzəri biliklərin artırılmasına və yerli mediada tətbiqinin reallaşdırılmasına töhfə verməsi gözlənilir.

**Aygün**



# Paşinyanın əsas hədəfi Qərbi Zəngəzuru itirməməkdir

## Ona görə də Ermənistan tərəfi SSR xəritələrinə istinad etmək istəyir

**Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan deyib ki, Ermənistan və Azərbaycan arasında sərhəd 1929-cu ildə delimitasiya edilib. Onun sözlərinə görə, İrəvana bu tarixi əsas götürmək və Ermənistanın 29,8 min kv.km ərazisini təmin etmək qalır. ”Bu, qəbul edilmiş prinsipdirmi” sualına isə Qriqoryan belə cavab verib:**

”Qəbul edilmiş qərar odur ki, biz sülh sazişini və delimitasiyanı ilin sonuna qədər tamamlayaq. Hələlik aydınlıq yoxdur, ancaq hansı istiqamətdə irəliləməklə bağlı anlayış var”. Qeyd edək ki, Azərbaycan ərazilərinin qanunsuz olaraq Ermənistana verilməsi prosesi 1920-1929-cu illərdə həyata keçirilib. 1929-cu il 18 fevraldakı ”delimitasiya” zamanı isə Ermənistana Cəbrayıl qəzasının Nüvədi, Eynəzir və Tuqut kəndləri, habelə Ordubad sahəsinin Qərçivan və Kilid kəndinin torpaqlarının bir hissəsi verilib. Bu ərazinin ümumi sahəsi 664 km2-dir. Amma bu, son deyildi. Torpaq verilməsi bundan sonra da davam edib və hazırda Ermənistanın işğalı altında olan Azərbaycan kəndləri buna görə anklavlara çevrilib. Beləliklə, bəlli olur ki, Ermənistan 1929-cu il xəritəsi əsasında sərhədlərin müəyyənləşməsinə çalışır.

**Politoloq Zaur Məmmədov bildirib ki, Qərb və Rusiya 1920-ci ilin Qafqaz xəritəsinə qayıtmalıdırlar. Ekspertin sözlərinə görə, Qriqoryanın bəyanatının səbəbi faktı gizlətmək və danışıqlarda cığallıq etməkdən ibarətdir:** ”Kommunistlərin 1920-ci ilin noyabrın 30-dan 10 il ərzində Azərbaycan torpaqlarını birtərəfli şəkildə Ermənistan SSR-yə bağışlamaları ilə meydana çıxan formal sərhəd xəritəsi hazırda danışıqlarda yol xəritəsi ola bilməz. Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın Ermənistan-Azərbaycan sərhədinin sovet vaxtından mövcud olması və 1991-ci ildə MDB-yə daxil olarkən qarşılıqlı tanınması barədə bəyanatı absurddur. Aydın məsələdir ki, Paşinyanın əsas hədəfi Qərbi Zəngəzuru itirməməkdir. Ona görə də Ermənistan tərəfi SSR xəritələrinə istinad etmək istəyir. Son variant kimi, İrəvan Azərbaycan və Ermənistan SSR arasında 1984-cü il yanvarın 1-də müəyyənləşən sərhəd xəttinə istinad edir. Rusiya isə 1974-cü il SSRİ xəritələrinə əsasən, Ermənistanla Azərbaycan arasında sərhədin delimitasiyasını nəzərdə tutur. Vurğulamaq lazımdır ki, bu təklif Ermənistan tərəfinin də xoşuna gəlməmişdi. 1974-cü ildən sonra Azərbaycanla Ermənistan arasında de-fakto sərhəd dəyişiklikləri baş verib ki, bu dəyişikliklər SSRİ-nin sonrakı inzibati-siyasi xəritələrində öz əksini tapmayıb”.

*Siyasi şərhçi vurğulayıb ki, 1991-ci il Alma-Ata sammiti zamanı qəbul edilən sərhəd xətti ciddi sual altına düşür:* ”1982-ci ildə Qazax rayonunun İcdar sahəsinin otlaqlarının bir hissəsinin, eləcə də Kəmərli, Aslanbəyli, Qaymaqlı kəndləri ərazilərinin bir hissəsinin Ermənistana verilməsi qərara alınmışdı. Daha sonra isə 1984-86-cı illərdə Qazax rayonunun İcdarında 2500 hektar otlaq sahəsi Ermənistana verildi. XX əsrin 80-ci illərində ərazilərin verilməsi ilə bağlı bütün qərarlar Azərbaycan SSR-nin ovaxtkı rəhbərliyi tərəfindən təsdiqlənməyib. SSRİ-nin dağılmasından sonra isə Azərbaycanda hakimiyyətə qayıdan prezident Heydər Əliyev Azərbaycan ərazilərinin Ermənistanın xeyrinə verilməsi ilə bağlı bütün hərəkətləri rəsmən qanunsuz elan etmişdi. Beləliklə, SSR zamanı, 1920-ci ilin sonundan 1991-ci ilə qədər Ermənistana verilən bütün torpaqlar qeyri-qanunidir. Bu məsələnin beynəlxalq arenada qabardılması indiki şəraitdə mümkünsüz kimi görünməməlidir”.

*Z.Məmmədov hesab edir ki, əgər söhbət Azərbaycan və Ermənistan arasında torpaqların tənzimləməsindən gedirsə, o zaman müstəqil aktorlar qismində 1920-ci ilə qədər hər iki dövlətin sərhədinə baxmaq lazımdır:* ”Aydın məsələdir ki, SSR işğalı zamanı sərhədlərin dəyişdirilməsi birtərəfli və qeyri-qanuni xarakter daşıyıb. Hazırda Rusiyanın özünün bir çox qonşu dövlətlərin sərhədlərini 1920-ci il kontekstində sual altına qoyduğu, Qərbin SSR kommunist rejimini qanunsuz qara yara adlandırdığı bir zamanda Azərbaycanın delimitasiya ilə bağlı ən azından 1920-ci ilə qayıtması tutarlı arqumentlərlə doludur. 1920-ci ilin payızında Ermənistan bolşevik dövlətinin tərkibinə daxil olarkən 9 min kv. km əraziyə malik idi. Buna görə də hazırda Qərbin Ermənistanın ərazi bütövlüyü ilə bağlı həyəcan keçirmələrinin heç bir hüquqi və məntiqi əsası yoxdur”.

**İsmayıl Qocayev**

# Qərbin fəallığı Kremli narahat edir

> Bundan sonra Rusiya Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasında daha fəal olacaq



**Bu gün Ermənistan, Azərbaycan və Rusiya xarici işlər nazirlərinin Astanada növbəti görüşü keçiriləcək. Bu barədə Ermənistan XİN məlumat yayıb. Məlumata görə, görüş Rusiya tərəfinin təşəbbüsü ilə baş tutacaq. Xatırladaq ki, Sergey Lavrov, Ararat Mirzoyan və Ceyhun Bayramov sonuncu dəfə Düşənbədə MDB Xarici İşlər Nazirləri Şurasının iclası çərçivəsində üçtərəfli formatda görüşüblər.**

*Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi, politoloq Tural İsmayılov XİN başçılarının baş tutacaq görüşünü ”Şərq”ə şərh edərkən bildirib ki, Azərbaycan və Ermənistanın yekun sülh müqaviləsinə doğru növbəti addımı müzakirə ediləcək:* ”Daha öncə də bu istiqamətdə Avropa İttifaqı Şurasının rəhbərliyi ilə Brüsseldə, sonra isə Praqada müzakirələr və görüşlər həyata keçirilib. Cənab Prezident tərəfindən ilin sonuna qədər tərəflər arasında yekun sülh müqaviləsinin imzalana biləcəyi də vurğulanıb. Astanada sərhədlərin delimitasiyası və demarkasiyası ilə bağlı işçi qruplarının növbəti görüşləri, eyni zamanda, sülh müqaviləsi ilə bağlı digər məsələlər müzakirə olunacaq. Həmçinin ”3+3” platforması çərçivəsində formalaşacaq gələcək regional əməkdaşlıq məsələlərinin müzakirəsi baş tutacaq”.

***Politoloqun qənaətincə, hazırda Qərb sülhlə bağlı məsələləri gündəmdə saxlayır. Buna görə də rəsmi Moskva bu məsələdə öz geopolitik qıcığını ortaya qoyur, Rusiya da görüşlərin keçirilməsinə nail olmağa çalışır:*** ”Rusiya bütün vasitəçiliyin tək mərkəzli olmağından o qədər də məmnun deyil. O, bundan sonrakı proseslərdə daha da fəallıq etməyə çalışacaq. İki ölkə arasındakı münasibətlərin normallaşmasında öz rolunun da olduğunu göstərmək üçün əlindən gələni edəcək. İstənilən halda həm Rusiya, həm də Qərb mərkəzli görüşlər iki ölkə arasındakı münasibətlərin gələcək inkişafı baxımından prinsipial olaraq önəmlidir”.

**Günəş Mərd**

# "İşğal zamanı dəymiş zərər 480 milyarddan artıqdır"

## Fərəc Quliyev: “Ərazilərimizin minalardan təmizlənməsi üçün vəsaiti də Ermənistan verməlidir”



**Prezident İlham Əliyev oktyabrın 13-də Astanada Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin 6-cı Zirvə Toplantısının plenar iclasında çıxış edib. Dövlətimizin başçısı çıxışında ölkəmizin dünyada mina ilə ən çox çirklənmiş ölkələr sırasında olduğunu diqqətə çatdırıb: ”İlkin hesablamalara görə, Ermənistan işğal zamanı bir milyondan çox mina basdırıb”.**

Prezident onu da qeyd edib ki, İkinci Qarabağ müharibəsinin başa çatmasından keçən iki il ərzində 250-dən çox Azərbaycan vətəndaşı mina partlayışları zamanı həlak olub və ya ağır yaralanıb: ”Beynəlxalq mütəxəssislərin hesablamalarına görə, Azərbaycana ərazilərin minalardan təmizlənməsi məsələsini həll etmək üçün təxminən 30 il və 25 milyard ABŞ dolları lazımdır”.

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, sabiq millət vəkili Fərəc Quliyev mövzu ilə bağlı ”Şərq”ə açıqlamasında deyib ki, bütün dünya ölkələri bu məsələnin həllinə ”əl qoymalıdır”:** ”Dünyanın istənilən yerində müharibə dövründə basdırılan minaların, postmüharibə dönəmində təmizlənməsi bir ölkənin görə biləcəyi iş deyil. Bu, humanitar məsələdir. Bir çox böyük dövlətlər özlərinə qonşu olmayan uzaq ölkələrə belə bu məsələdə yardım əli uzadırlar. Bunu beynəlxalq aləm aradan qaldırmalıdır.

Təkcə Ağdam istiqamətində 96 min mina basdırılıb. İndi o torpağın hər qarışını yoxlamaq, təmizləmək lazımdır. Bu işi təkcə Azərbaycanın üzərinə atmaq olmaz. Amma dünya ölkələrinin bir çoxu buna laqeyd yanaşır, dəstək vermir. Digər tərəfdən, minalardan təmizlənməsi üçün xərclənəcək vəsaiti Ermənistan tərəfi verməlidir. Bu ölkə eyni zamanda, İkinci Qarabağ müharibəsinə görə də bizə təzminat ödəməlidir. İraq-Küveyt savaşını yada salaq. İraq Küveytə hücum etmişdi.

Dağıntıların miqyası o qədər də böyük olmasa da, Küveyt İraqa təzminat ödətdirdi. Başqa bir misal çəkim: Ukrayna-Rusiya savaşı da hələ bitməyib. Artıq Rusiyanın hesabları bağlanıb. Təxminən 680 milyard civarında məbləğ təzminat kimi Ukraynaya ödənilib. Bizim ərazilərimizin Ermənistan tərəfindən dağıdılması Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına üzv olan böyük dövlətlər tərəfindən də dörd qətnamədə təsbit olunub.

Onlar özləri də bunu etiraf ediblər. Bizə dəymiş zərər hesablanıb. Xatırlayıram ki, mən Milli Məclisdə olanda bu məbləğ 480 milyarddan çox idi. Rəsmi İrəvan bunu ödəməlidir. Ona görə də minalarla yanaşı bu təzminat da ödənilməlidir. Hesab edirəm ki, ölkə başçımızın Astanadakı çıxışı zamanı ortaya qoyduğu bu tezis prosesə start vermək üçün çox uğurlu başlanğıcdır”.

**Günəş Mərd**



# Fransanın vasitəçiliyi qəbul edilə bilməz

## Son proseslər göstərir ki, rəsmi Paris Brüssel formatını manimsəməyə və öz əlinə keçirməyə çalışır

**Son zamanlar Fransa gündəmdə olmayan məsələləri qabardır, ciddi-cəhdlə danışıqlar prosesinə qoşulmağa, vasitəçilik missiyasını icra etməyə cəhd göstərir. Aydın məsələdir ki, qatı ermənipərəst siyasət yürüdən Fransa erməni lobbisinin güclü təsiri altındadır və Ermənistanın maraqlarını açıq şəkildə müdafiə edir.**

Bütün bunları nəzərə alsaq, Fransa heç bir halda Azərbaycanla Ermənistan arasında vasitəçi ola bilməz. Son proseslər həm də onu göstərir ki, rəsmi Paris Brüssel formatını manimsəməyə və öz əlinə keçirməyə çalışır. Etiraf etmək lazımdır ki, son zamanlar Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması istiqamətində Brüssel formatı çərçivəsində, Aİ Şurasının prezidenti Şarl Mişelin yaxından iştirakı və ciddi-cəhdləri sayəsində önəmli addımlar atılıb. Xüsusilə sərhədin delimitasiyası üzrə işçi qrupunun formalaşdırılması, XİN rəhbərləri səviyyəsində təmasın qurulması, sülh sazişi mətninin hazırlanması ilə bağlı razılaşma və s. buna misal ola bilər. Prezident E.Makron ötəngünkü açıqlamasında açıq şəkildə qeyd edib ki, Avropa Siyasi Birliyi zirvəsi çərçivəsində AŞ və Fransanın vasitəçiliyi ilə dördtərəfli görüş baş tutub. Makron hətta daha da irəli gedərək qeyd edib ki, bu çərçivədə yeni tarixdə ilk dəfə olaraq Ermənistan və Türkiyə liderləri də görüşdü. Göründüyü kimi, Makron təkcə Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasını deyil, həm də Türkiyə-Ermənistan münasibtəlrinin normallaşmasını mənimsəməyə çalışır. Halbuki, Fransanın bir sıra ölkələrdə həyata keçirdiyi soyqırım siyasəti, müsəlman ölkələrinə qarşı qərəzli mövqeyi, müsəlmanlara qarşı dini və irqi ayrı-seçkiliyi, habelə Azərbaycan və Türkiyəyə qarşı qərəzli siyasəti hamıya məlum həqiqətlərdir. Makron jurnalistin ”AB Azərbaycandan qaz alır, buna görə Azərbaycana tolerant yanaşa bilərmi” sualına isə ”Fransa Azərbaycandan qaz almır. Əlbəttə, AB-nin bir neçə ölkəsinin Azərbaycanla qaz sazişi var. Amma biləsiniz ki, Fransa və AB-nin dəyərləri qaz və ya neftə satılmır” açıqlamasını versə də, bu, reallığı dəyişmir. Çünki Bakının hazırda Avropanın enerji təminatında çəkisi heç olmadığı qədər artıb. Fransa prezidentinin bu çıxışı region və Azərbaycan haqda tamamilə təhrif edilmiş və şantaj üzərində qurulan bir çıxışıdır. Bundan başqa Makronun son açıqlaması həm də Fransa-Azərbaycan münasibətini yenidən gündəmə gətirir.

**Siyasi şərhçi Asif Nərimanlı deyib ki, Makronun öz müsahibəsində ”Ermənistanı sona qədər tək qoymayacaqlarını” bəyan etməsi göstərir ki, bu ölkənin Bakı-İrəvan münasibətlərinin normallaşmasında vasitəçilik etməsi qəbul edilə bilməz. Analitikə görə, Fransa tərəf olduğunu ən yüksək səviyyədə bəyan edir:** ”Makronun müsahibəsində əsas diqqətçəkən məqamlardan biri isə Azərbaycanın Avropaya qaz satmasının heç bir ”güzəştə” əsas vermədiyi haqda dedikləridir. ”Fransa Azərbaycandan qaz almır” deyən Makron bu sözləri ilə ”Azərbaycana qarşı sanksiyaları nəzərdən keçirmədiklərini” deyən Avropa İttifaqının beynəlxalq məsələlər üzrə ali komissarı Josep Borrelə cavab verir. Dolayı yolla Bakıya qarşı cəbhəni gücləndirəcəklərini elan edir. Gələn ay Fransa senatı Azərbaycana qarşı sanksiyaların tətbiqini müzakirə edəcək. İstisna deyil ki, Fransa hökuməti təzyiq xarakterli qərarların qəbuluna çalışacaq”.

**İsmayıl Qocayev**

# ABŞ ordusu qaydaları dəyişir

## Daha kök adamlar da xidmətə qəbul ediləcək



**ABŞ ordusunda mühüm dəyişikliklər gözlənilir. Əsgərlərin çəki məhdudiyyətləri ləğv oluna, kök əsgərlərin fiziki hazırlıq testlərində kifayət qədər yaxşı bal topladığı təqdirdə xidmətdə qalmasına və yüksəlməyə davam etməsinə icazə veriləcəyi açıqlanıb.**

Military.com xəbər verir ki, qayda dəyişikliyi ordunun ən yüksək rütbəli komandiri, çavuş mayor Maykl Qrinston tərəfindən açıqlanıb.

Qrinston Vaşinqtonda ordu konfransında əsgərlərə deyib: ”Əgər siz ACFT (Army Combat Fitness Test) imtahanında yüksək bal toplasanız, bu, yaxşı olduğunuz deməkdir”.

Grinston, çəki ilə bağlı siyasətə digər dəyişikliklərin qiymətləndirildiyini və ilin sonuna qədər yekunlaşacağını söylədi.

Qayda dəyişikliklərinin nə vaxt qüvvəyə minəcəyi barədə qərar verilməyib.

İndiki qanuna görə, hərbçilərin ən azı altı aydan bir çəkiləri yoxlanır və çox kök hesab edilən şəxslərə yenidən hərbi xidmətə qəbul, yüksəliş, köçürmə və ya peşə məktəblərinə qəbul olunmaq üçün icazə verilmir.

Pentaqonun məlumatlarına görə, ABŞ-da yetkin insanların yüzdə 42-dən çoxu obezdir və 1997-ci ildən sonra doğulmuş amerikalıların təxminən 71 faizi hərbi xidmət üçün uyğun deyil, çünki onlar çox kökdülər.

**Turan**

# Azərbaycan Zəngəzur dəhlizini açmağı hədəfləyir

## Digər tərəfdən Avropa ilə enerji sahəsində əməkdaşlığı dərinləşdirir



**”27 sentyabr 2020-ci ildə başlayıb 44 gün ərzində Azərbaycanın zəfəri ilə bitən II Qarabağ savaşından sonra həm Azərbaycan, həm də dünyada yeni dövrün əsası qoyuldu. 10 noyabr 2020-ci ildən etibarən Azərbaycanın xarici siyasət strategiyasında yeni konsepsiyaya keçməsi getdikcə öz məntiqi nəticəsini verməkdədir”.**

*Bu barədə ”Şərq”ə Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin rəhbəri, politoloq Samir Hümbətov bildirib. O qeyd edib ki, Azərbaycan çoxşaxəli xarici siyasət strategiyasını seçib:* ”Azərbaycan bir tərəfdə Ermənistanı sülhə məcbur edib, Zəngəzur dəhlizini açmağı hədəfləyir. Digər tərəfdən Avropa ilə enerji sahəsində əməkdaşlığı dərinləşdirir. Naxçıvana keçid üçün İranla anlaşmaya imza atır. Ukrayna müharibəsindən öncə Rusiya ilə müttəfiqlik müqaviləsi imzalayır. Həmçinin Özbəkistanda Şanxay Əməkdaşlıq Təşkilatının dialoq ortağı olaraq sammitə önəmli tərəf kimi qatılır. Avropa Siyasi Birliyinin Praqada keçirilən ilk sammitinə dəvət alır və orada 30 ildən sonra Avropanın gözü önündə Ermənistana Azərbaycanın ərazisini tanıtmağı bacarır.

Nəhayət, bütün türkdilli dövlətlərlə müttəfiqlik haqqında sənədə qol çəkir. Asiyada təhlükəsizlik və əməkdaşlıq platformasında aktiv şəkildə iştirak edir.

Azərbaycan ən çətin vəziyyətdə belə dünyanın mövcud şərtlərini nəzərə almaqla yanaşı, həm də balanslı xarici siyasət qurmaqla, öz təhlükəsizliyini təmin etməklə region və dünya dövlətləri ilə aktiv xarici siyasət yürüdür. Ən başlıca şərt siyasəti və onun şərtlərini bilməkdən asılıdır.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin uzun dövlətçilik təcrübəsi və dərin siyasi savadı imkan verir ki, hətta kiçik dövlət olmağımıza baxmayaraq, əlimizdə olan maddi və mənəvi resurslarımızdan səmərəli şəkildə faydalanmaqla dünyanın nəhəng dövlətləri ilə bir masada nüfuz mübarizəsi apara bilək”.

*Qeyd edək ki, Prezident İlham Əliyev oktyabrın 13-də Astanada Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin 6-cı Zirvə Toplantısının plenar iclasında çıxış edib. Ölkəmizin başçısı Zəngəzur dəhlizi məsələsinə toxunaraq qeyd edib: ”Azərbaycan Orta Dəhlizin önəmli hissəsini təşkil edəcək Zəngəzur dəhlizinin yaradılmasını fəal şəkildə təşviq edir. Hörmətli həmkarlar, Azərbaycan tərəfindən həyata keçirilən genişmiqyaslı nəqliyyat infrastrukturu layihələri ölkəmizi ən mühüm beynəlxalq nəqliyyat və logistika mərkəzlərindən birinə çevirib. 2022-ci ilin ilk doqquz ayı ərzində Azərbaycan ərazisindən keçən tranzit təxminən 65 faiz artıb. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin inkişafına mühüm töhfələr verir. Azərbaycan Orta Dəhlizin önəmli hissəsini təşkil edəcək Zəngəzur dəhlizinin yaradılmasını fəal şəkildə təşviq edir”.*

**Aygün Tahir**

# İranda aksiyalar vahid mərkəzdən idarə olunmur

## Bir azdan etirazlar səngiyəcək, molla rejimi istəyinə çatacaq



**İranda etirazlar davam edir. Oktyabrın 12-də Saqqız şəhəri etirazçıların nəzarətinə keçib. Yayılan görüntülərdə əhalinin şəhərin küçələrində toplaşdığı, müxtəlif şüarlar səsləndirdiyi əks olunub. Ayın 13-də isə Qonbəd Kavus şəhərinə toplaşan molla rejimindən narazı etirazçılar ”top, tüfəng, tank ola, molla gərək rədd ola” şüarı səsləndiriblər.**

*Hərbi-siyasi ekpert Həşim Səhrablı İrandakı etirazlarla bağlı ”Şərq”ə danışarkən bildirib ki, etirazlar vahid mərkəzdən idarə edilmədiyi və öncədən planlaşdırılmış şəkildə başlamadığı üçün ilk günlərdə çox effektsiz görünürdü.* Qərb dairələri də etirazların geniş vüsət alacağını da gözləmirdi. Sonrakı günlərdə isə İran xalqı geri çəkilmədi, etirazların dairəsini daha da genişləndirdi: ”Bundan sonra görürük ki, Qərb dövlətləri, həm də Qərbdəki transmilli şirkətlər (əsasən də internet və sosial media şirkətləri) ”Ərəb baharı”nda etdiklərini təkrarladılar. İrandakı kimi o zaman da, rejimin atdığı ilk addımlardan biri insanların toplaşmasının qarşısını almaq üçün onların əlaqə vasitələrini kəsmək olub.

Məhz ”Ərəb baharı”nda da Avropa dövlətləri, transmilli şirkətlər ərəb xalqlarının internetini bərpa etməklə onlara təşkilatlanmaqda dəstək veriblər. İrana da belə dəstəklər verildi. Bundan sonra etirazların həcmində artım baş verdiyini, xalqın ruhlandığını gördük”.

**Ekspertin sözlərinə görə, hazırda İrandakı proseslərdə rejimin dəyişməsini, etirazçıların öz məqsədlərinə çatmasını gözləmək bir qədər sadəlövhlük olar:** ”Çünki bu ölkədə güc strukturlarının bölgüsü fərqlidir. Burda fərqli güc qrupları var. Ordu içində müxtəlif qruplaşmalar mövcuddur. Xalq bir qrupu razı salıb, başqa birini məğlub etsə, yenə də başqa biri ilə üzüzə gələcək. Ona görə etirazçılar mövcud rejimi asanlıqla məğlub edə bilməyəcək.

Digər tərəfdən düşünürəm ki, Avropadan etirazçılara həm iqtisadi, həm də hərbi avadanlıqlarla dəstək verilərsə, bu zaman İranda ciddi dəyişikliklər ola bilər. İndiki məqamda isə mövcud rejim etirazçıların bəzi istəklərini yerinə yetirməklə onları ram etməyə çalışır.

Beləcə narazı kütlənin bir hissəsinin qəlbinə yol tapır. Proses bu şəkildə davam edərsə, növbəti günlərdə etiraz dalğalarında ciddi azalmanın şahidi olacağıq”.

**Günəş Mərd**

**İsmayıl Qocayev**

# Paşinyanı daha da "odun-alovun" içinə itələyirlər

## Qərbin missiyasının Ermənistana gəlməsi İranın və Rusiyanın aqressiyasına səbəb olacaq



**Avropa İttifaqının Ermənistan-Azərbaycan sərhədinə mülki missiya göndərilməsi məsələsi yönündə addımlar atılır. Aİ-nin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar oktyabrın 10-da Avropa Parlamentində müzakirələr zamanı deyib ki, Aİ-nin Ermənistan-Azərbaycan sərhədinə mülki missiyası ilə bağlı qərar üzv dövlətlər tərəfindən verilməlidir.**

Onun sözlərinə görə, bu məsələ Siyasi və Təhlükəsizlik Komitəsində müzakirə olunacaq. Klaar bildirib ki, Fransa müzakirələr prosesində ən yüksək səviyyədə iştirak edir. ABŞ da yüksək səviyyədə təmsil olunur: ”Biz tərəfləri sülh istiqamətində konkret addımlar atmağa, əldə olunan razılaşmaların müddəalarına əməl etməyə təşviq edirik. Avropa İttifaqı Cənubi Qafqazda əlaqələrin normallaşmasına töhfə vermək istiqamətində yaxşı mövqedədir. Regionda vəziyyət çox təhlükəli olaraq qalır, vəziyyət qeyri-stabildir. Ötən otuz ildən bəri qalmış qəzəb hissi var. Ancaq biz bu iki ölkənin qonşuları olaraq onlara kömək etməliyik. Kömək etməliyik ki, bunun öhdəsindən gəlsinlər. Çünki bu, çiçəklənən, sülhün olduğu Cənubi Qafqaz üçün vacibdir. Ədalətli sülhün əldə olunması istiqamətində görüləcək işlər çoxdur”. Məlumat üçün bildirək ki, Avropa İttifaqından texniki qrup Ermənistan-Azərbaycan sərhədinə missiyanın yerləşdirilməsi məsələsini müzakirə etmək üçün İrəvana səfər edib. Ermənistan Xarici işlər nazirinin müavini Paruyur Ovannisyan deyib ki, texniki qrup Azərbaycanla sərhəddə Aİ missiyasının konkret yerlərini müzakirə etmək üçün Ermənistana gəlib: ”Bu məsələlər hələ müzakirə olunur”. Qeyd edək ki, beynəlxalq missiya məsələsində Azərbaycanı narahat edən əsas məqam Fransanın prosesdə yer almaq istəməsi, bölgədə baş verənlərə yenidən ”burnunu soxma” cəhdləridir. Fransanın qərəzli və ermənipərəst mövqeyinə bələd olan rəsmi Bakı buna qətiyyətlə qarşı çıxır. Bu arada Ermənistan və Azərbaycan sərhədinə Aİ müşahidəçilərinin mülki missiyasının göndərilməsinə hazırlıq fonunda Rusiya təklif edib ki, İrəvan KTMT missiyasını da Ermənistana dəvət etmək qərarına gəlsin. Rusiyanın Xarici işlər naziri Sergey Lavrov Astanada Ermənistanın Xarici işlər naziri A.Mirzoyanla görüşündə bildirib ki, bu addımın məsuliyyəti Ermənistanın üzərindədir: ”Tələb olunan yeganə şey Kollektiv Təhlükəsizlik Şurasının qərarıdır, onu KTMT sədri (sədr Ermənistandır) çağırmalıdır”. Yəni Lavrov İrəvana xatırladıb ki, NATO-nun qapılarını döyüb KTMT-dən kömək istəmək məntiqsizdir. Rusiya Ermənistanın özünü bu addımı atmağa məcbur etmək istəyir. Əsas məqsəd İrəvanın qərbpərəst oyununu onun öz əli ilə sındırmaqdır.

**Millət vəkili Elman Məmmədov ”Şərq”ə açıqlamasında bildirib ki, Azərbaycan beynəlxalq missiyasının əziyyətini 28 il çəkib. Deputat bildirib ki, ATƏT-in Minsk qrupu 28 il ərzində ermənilik edə-edə torpaqlarımızın işğalda qalmasına şərait yaradıb:** ”Elə bu kimi səbəblərə görə, cənab Prezident beynəlxalq missiyanın Azərbaycan ərazisində olmasına qarşı çıxdı. Azərbaycan tərəfi vurğuladı ki, əgər İrəvan xarici missiya istəyirsə, onlar buyurub Ermənistana gələ bilərlər. Ancaq bizim ərazimizdə işləri yoxdur. Lazım olan anda özümüz əlaqə saxlayaraq müəyyən məsələləri dəqiqləşdirərik. Praqada keçirilən görüşlərdə biz Fransanın dövlət başçısı və xarici işlər nazirinin ermənilərdən çox erməni olduğunu müşahidə etdik. Makron belə görüşlərdə Paşinyanın ”şilləvuranı” kimi iştirak edir. Rəsmi Paris masada ”Ermənistanı təmsilçisi” statusunda çıxış etməyə çalışır. Azərbaycan ictimaiyyəti açıq-aşkar Fransanın vasitəçiliyinə qarşı çıxır. Çünki Fransanın ermənipərəst mövqeyini, 28 il ərzində ”həmsədr” kimi çıxardığı oyunları hamı yaxşı bilir. İndi beynəlxalq missiyanın yenidən bölgəyə girmək cəhdlərinin müəyyən səbəbləri var. ABŞ və Avropa Cənubi Qafqazda və Ermənistanda Rusiyanın nüfuz dairəsini, təsir gücünü zəiflətsin və sıfıra endirsin. Onların gəlişi xoşməramlı deyil. Dünyanın bir çox yerində fəaliyyətə başlamış mülki missiyaların sonrakı təşəbbüsləri də göz önündədir. Bir müddət yalan-dolan və qərəzli məlumatlar çatdırandan sonra ”müzakirələrə” başlayırlar. Qərar verirlər ki, münaqişə bölgəsində mütləq Avropa Birliyinin hərbi gücü iştirak etməlidir. Ermənistanın, Fransanın, elə ABŞ-ın da istəyi budur. Beynəlxalq missiyaya arxayın olan Ermənistan, o cümlədən Qarabağdakı ermənilər min cür oyundan çıxacaqlar, növbəti təxribatlara əl atacaqlar. Azərbaycan Ordusu da onların layiqli cavabını verəndə beynəlxalq missiya qərəzli şəkildə məlumatlar yayacaq, Bakını ittiham edəcəklər”.

**E.Məmmədov bəyan edib ki, şübhəsiz, Qərbin Ermənistana gəlməsinin özü uzun müddətdir ermənilərlə dostluq-qardaşlıq edən, düşmənin qida borusuna çevrilən İranın özü üçün də ciddi təhdiddir:** ”Bu yaxınlarda Tehran hökuməti İrəvana öz narazılığını ifadə etdi. Beynəlxalq missiyanın bölgəyə gəlməsi, İranın qulağının dibinə yerləşməsi heç də Tehranın marağına uyğun deyil. Bu, erməni dostları tərəfindən İrana sürprizdir. Moskva da bu məsələ ilə bağlı ciddi narahatlığını və narazılığını bildirdi. Çünki Moskva da yaxşı bilir ki, İrəvana axışan Qərb ölkələrinin niyyəti bölgədə sülhə nail olmaq deyil. Hədəfin Rusiya olduğunu anlayırlar”.

# Ukraynanı İranın dronları sarsıtdı

## Qərb Tehranın Rusiyaya dəstəyini cavabsız qoymayacaq




### *Sanksiyalar artırılacaq, həm də ölkənin daxilindəki çaxnaşmalara dəstək veriləcək*

**Rusiya Silahlı Qüvvələri Ukraynanın Kiyev şəhərinə İran istehsalı olan dron-kamikadzelərlə hücum edib. Bu barədə Kiyev vilayətinin hərbi administrasiyası məlumat yayıb. Dronlardan birinin vilayət ərazisinə düşməsi qeydə alınıb, lakin onun dəqiq yeri, xəsarət alanlar və dağıntılar barədə məlumat verilməyib.**

Xatırladaq ki, bundan öncə də Rusiyaya məxsus iki dron-kamikadze Vinnitsa vilayətinə hücum təşkil edib. Rusiya ordusu 2 ”Şahid-136” dronu vasitəsilə Vinnitsadakı Ladıjinsk İstilik Elektrik Stansiyasını vurub.

**Politoloq Azər Qasımov ”Şərq”ə bildirib ki, İran fars molla rejiminin öz mahiyyətinə uyğun hərəkət etməsində qeyri-adi heç nə yoxdur. Analitikə görə, İran yenə də özünün destruktiv rolunu oynamağa davam edir, müsəlman dövləti adına uyğun gəlməyən addımlar atır:** ”İran işğalçı ölkənin yanında durur, dinc əhalinin məhv edilməsinə, onların durumlarının çətinləşdirilməsinə və Rusiyaya bu işğalı davam etdirməsinə şərait yaradır. Həmçinin, bilavasitə özü də iştirak edir. Bizim üçün İranın bu xisləti çoxdan bəllidir. 30 illik Qarabağ işğalı zamanı Ermənistana verdiyi dəstəyi hər zaman bilir və pisləyirik. İranın dronları sanksiya altında olsa da, sonradan məlum oldu ki, bir sıra ehtiyat hissələri Amerika şirkətlərindən alırmış. Bu, İran və Amerikanın gizli şəkildə əməkdaşlıq etdiyinin sübutudur. Amma görünən odur ki, İran öz dronlarını Rusiyaya verməklə Amerikanın planlarını pozduğunu anlamayıb. İranın Rusiya işğalına dəstək verməsi hərbi baxımdan ciddi nəticə doğura bilməz. Əvvəla, bu dronlar texniki baxımdan yaxşı statistikaya malik deyil, asanlıqla məhv edilir, hətta onu avtomat silahlarla belə vurmaq mümkündür. Hazırda İran dronlarının özünü ”doğrultması”nın səbəbi Rusiyanın dronlarla yanaşı bir sıra raketləri də paralel işlətməsi və Ukrayna hava hücumundan müdafiə sistemlərinin bunları vurmaq üçün texniki imkanlarının az olmasıdır. Elə ona görə də Amerika Ukraynanı yeni hava hücumundan müdafiə sistemləri ilə təmin etmək məqsədi ilə ölkənin hava məkanını bağlamaq qərarına gəlib. Hesab etmək olar ki, bundan sonra belə dronların heç bir əhəmiyyəti qalmayacaq”.

**A.Qasımov vurğulayıb ki, İranın bu hərəkətinə cavab isə ona qarşı sanksiyaların artırılması ola bilər:** ”Rusiyanın işğal siyasətinə neytral qalan və müxtəlif şəkildə dəstək verən tək ölkə İran deyil. Məsələ ondadır ki, İranla münasibətləri görüntü xətrinə də olsa gərginləşdirmək Amerikaya sərf etmir. Əvvəla, Prezident Co Bayden İranla nüvə məsələsində müəyyən razılığa gəlib sanksiyaları götürməyi planlaşdırırdı. Bu isə BƏƏ və Səudiyyə Ərəbistanının maraqlarına uyğun gəlmir. Bayden Rusiyanın enerji daşıyıcıları ixracından gəlirlərinin azaldılması üçün Birləşmiş Ərəb Əmirliklərindən neft ixracını artırmağı tələb etmişdi ki, neft ucuzlaşsın və Rusiyanın satdığı neftdən gəlirləri aşağı düşsün. Bununla da maddi çətinliklər Rusiyanı işğaldan əl çəkməyə vadar etsin. Amma BƏƏ bundan imtina etdi, Rusiyanın yanında yer aldı və OPEK-in son iclasında neft ixracını gündəlik 2 milyon barel azaltmaq qərarını aldı ki, bu da Baydenin və Amerika konqresinin qəzəbinə səbəb oldu. Neft yenə də bahalaşmağa başladı. Amerika bunun müqabilində BƏƏ və Səudiyyə Ərəbistanındakı 5 min Amerika hərbçisinin 3 ay müddətinə çıxarılması qərarı aldı və onlarla hərbi əlaqələri kəsəcəyini bəyan etdi. İndi bu durumda Amerikanın İranla da gərginlik yaratmaq fikrinin olmayacağı aydındır. Amerikanın İran vasitəsi ilə ərəb ölkələrinə təzyiqinin artacağı, Yəməndəki hüsilərin Səudiyyə krallığın atəşə tutacağı, ARAMKO neft emalı zavodlarının hədəf alınacağı şübhəsizdir. Sadəcə, Amerika ərəb ölkələri ilə münasibətlərin durdurulmasında gözləmə mövqeyi tutacaq, çünki bu, elə də asan məsələ deyil. Amerikanın ərəb yarımadasında da çox böyük maraqları vardır. Bu baxımdan ordan da dediyi kimi çıxmaq ona sırf etmir. Hələlik hesab edirəm ki, ərəbləri qorxutmaq mövqeyi seçəcək. Bunlar çox mürəkkəb proseslər olduğu üçün kimin əlinin kimin cibində olmasının dəqiqləşdirilməsi əsas məsələdir. Bir müddət İran bu barədə rahat nəfəs ala bilər”.

*Həmsöhbətimiz qeyd edib ki, Qərb İran neftinin də Avropaya çıxarılmasını planlaşdırır:* ”Ona görə İrana bilavasitə yox, dolayı yolla təzyiq yolu tutulacaq. Məsələn, daxildə çaxnaşmalara dəstək verməklə. İran hakimiyyəti də monolit olmadığı, müxtəlif qruplardan təşkil olunduğu üçün Amerikanın dəstəyi bu qruplar üçün hakimiyyəti əldə saxlamaqda həlledici rol oynayacaq”.

**İsmayıl Qocayev**



# "Bizim yolumuz Türkiyə ilə birdir"

## Cavanşir Abbaslı: “Azərbaycanın yolu nə Rusiyadan, nə də Avropadan keçir”

Avropa İttifaqı Ermənistanın Azərbaycanla sərhəd bölgələrinə missiya göndərmək qərarına gəlib. Bunu Ermənistanın Xarici işlər naziri Ararat Mirzoyan bildirib.

Mirzoyan Rusiya Xarici işlər naziri Sergey Lavrovla danışıqları zamanı bəyan edib ki, Fransa Prezidenti Emmanuel Makron və Aİ şurası sədri Şarl Mişelin təşəbbüsü ilə Praqada görüş olub, orada razılaşdırılıb ki, Aİ missiyası faktları öyrənmək üçün Ermənistana səfər edəcək və sonra yəqin ki, hesabat verəcək.

Avropa İttifaqının texniki qrupu Ermənistana səfər edəcək. Qrupun məqsədi Ermənistan-Azərbaycan sərhədində yerləşdiriləcək Avropa İttifaqı missiyasının konkret yerlərini müzakirə etməkdir.

**Proseslərin pərdə arxasını şərh edən AĞ Partiya sözçüsü, siyasi şərhçi Cavanşir Abbaslı ”Şərq”ə bildirib ki, missiyanın göndərilməsinin 12-13 sentyabr sərhəddə baş verən hadisələrlə bağlı olduğunu düşünür:**

”Ermənistana 2.6 milyard dollar həcmində maliyə dəstəyi ayıran qurumdan bundan artığını gözləmək olmazdı. Əslinə qalsa, bu missiya İrəvana verilən dəstəyin daha bir nümunəsidir. Artıq sərhədlər müəyyən olunduqdan sonra bu missiyanın da bir önəmi qalmayacaq. Məlum addım Ermənistanı ”diriltmək” cəhdlərindən biridir. Aİ-nin son günlərdə verdiyi qərarlar isə birbaşa əleyhimizə yönəlib. Onlar çalışır ki, Qarabağ problemi qalmaqda davam etsin. Çünki məsələnin Azərbaycanın xeyrinə həll olunması ilə heç cür barışa bilmirlər. Vətən müharibəsindən sonra dəfələrlə şahidi olmuşuq. Lakin ordumuz 2-ci Qarabağ savaşında təkcə Ermənistana yox, onun arxasındakı havadarlara da güclü zərbə endirmişdi. Bu cür missiyaların Bakını qərarlarından və haqq işindən yayındıra bilməyəcəyini düşünürəm. Onlar bir tərəfdən Avropaya inteqrasiyamızı istəyir, digər tərəfdənsə bu cür qərarlar verirlər. Bu anlamda da özlərinə ziyan vururlar”.

*C.Abbaslı vurğulayır ki, Azərbaycanın yolu nə Rusiyadan, nə də Avropadan keçir:* ”Bizim yolumuz Türkiyə ilə birdir və onların güclənməsi üçün əlimizdən gələn dəstəyi verməliyik. Çünki güclü Türkiyə, güclü Azərbaycan deməkdir. Ankara bizim yanımızda olduğu dönəmdə Aİ, ABŞ, Rusiya və İran kimi qüvvələrin əleyhimizə verəcəkləri qərarın heç bir təsiri olmayacaq. Bu səbəbdən də sözügedən missiya uzunömürlü olmayacaq. Onlar zamanı gəldikdə boş işlərlə məşğul olduqlarını anlayacaqlar”.

**Nihat Müzəffər**



# Müharibə təzminatı gündəmdə saxlanmalıdır

## Fərhad Mehdiyev: “İndiki şəraitdə rəsmi Bakı İrəvanı daha çox sıxa bilər”

**Prezident İlham Əliyev Astanada keçirilən Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin 6-cı Zirvə Toplantısının plenar iclasında çıxış edib. Çıxış zamanı ölkə rəhbəri qeyd edib ki, Qarabağ münaqişəsinin həll olunmasına baxmayaraq, Ermənistan sərhəddə təxribatlar törətməkdə davam edir, bunlardan sonuncusu isə bu ilin sentyabr ayında törədilib.**

Dövlət başçısı bildirib ki, Azərbaycan Silahlı Qüvvələri Ermənistanın hərbi təxribatının qarşısını almaq üçün qətiyyətli əks-həmlə əməliyyatına başlamağa məcbur oldu:

”Bütün bu təxribatlara görə məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Ermənistan tərəfindən törədilmiş etnik təmizləmə nəticəsində bir milyondan çox azərbaycanlının 30 il ərzində əziyyət çəkməsinə, misli görünməmiş vəhşiliyə, yüzlərlə şəhər və kəndimizin dağıdılmasına baxmayaraq, Azərbaycan Ermənistana qarşılıqlı şəkildə bir-birinin ərazi bütövlüyünün tanınması əsasında sülh sazişi imzalamağı təklif edib”.

Politoloq, dövlət hüququ üzrə doktor Fərhad Mehdiyev də bildirib ki, Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanımaması və razılaşmaları həyata keçirməməsi, bütün məsuliyyəti onun üzərinə qoyur: ”Hazırda sülh müqaviləsinin imzalanmamasında əsas iki səbəb var.

Birincisi, rəsmi İrəvan bizim ərazi bütövlüyümüzü tanımaq istəmir. İkincisi isə 9 Noyabr razılaşmasının tərkibindəki bəndləri yerinə yetirmir.

Bu da Ermənistanın qərəzli yanaşmasıdır. Beynəlxalq hüquqda da bu məsələlərin həll olunması tələb olunur.

Çünki mübahisəsiz Qarabağ Azərbaycanın ərazisidir və bütün beynəlxalq təşkilatlar onu elə tanıyır. Digər tərəfdən indiki şəraitdə rəsmi Bakı İrəvanı daha çox sıxa bilər.

Məsələn, biz onlardan müharibə təzminatı tələb edə bilərik, amma etmirik.

Bu, Azərbaycanın Ermənistana etdiyi çox böyük bir jestdir. Yəni bu gün sülhə mane olması və öhdəliklərindən boyun qaçırması bizə, ”günahkar Ermənistandır” deməyə imkan verir”.

**Nihat Müzəffər**

# Kasıbçılığın üzü qara olsun!

## Marketlərdə əlini toyuq ətinə uzadanların sayı artıb

**Sümüklü dana ətinin 15, sümüksüz dana ətinin qiymətininsə 17 manata qalxması əhalini toyuq ətinə üstünlük verməyə vadar edib. Marketlərdə əlini toyuq ətinə uzadanların sayı da getdikcə artır. Amma toyuq ətinə tələbatın artması bu məhsulun da qiymətinə təsir edir.**



### *"Ən əvvəl sağlamlıq, ikinci isə ailə büdcəsi haqqında düşünənlər, toyuq və toyuq filesi alarkən diqqətli olmalıdır"*

Dönərlik toyuq ətinin kiloqramının 5-5.50 qəpikdən 6 manata qalxdığı məlumdur. Evdar olmayan qadınların toyuq ətinə üstünlük verməsinin əsas səbəbi tez hazırlanmasıdır, lakin evdar qadınlar da toyuq ətinə üstünlük verməyə başlayıb artıq. Şübhəsiz ki, bu, toyuq ətinin dana, quzu əti ilə müqayisədə ucuz olması, müxtəlif yeməklərin hazırlanmasında - istər isti, qazan yeməklərində, istərsə də soyuq yeməklərdə - salatlarda geniş istifadəsinin mümkünlüyüdür. Amma qida mütəxəssisləri əhaliyə toyuq əti alarkən diqqətli olmağı məsləhət görür. Səbəb nədir?

Mütəxəssislər bildirir ki, toyuq bulyonunda bir çox amin turşusu və mineral var, immunitet sistemini gücləndirir, həzmi və sümük toxumasının vəziyyətini yaxşılaşdırır. Buna görə də xəstələrə toyuq bulyonu məsləhət görülür. Məsələn, qaynadılmış 100 qram toyuq ətinin tərkibində: zülallar - 19.1 q, yağ - 7.4 q, karbohidratlar - 0.5 g, ümumi enerji dəyəri isə - 145 kcal-dır. Toyuq ətinin faydalı xüsusiyyətləri həm toyuqların pəhrizinin tərkibinə, həm də onların böyüməsinin ümumi üsuluna bağlıdır. Bu səbəbdən geniş açıq qəfəslərdə və açıq havada, ev təsərrüfatlarında yetişdirilən toyuqlara üstünlük verilməlidir. Qarışıq yem və böyümə stimulyatorları sayəsində yetişdirilən broyler toyuqlarından uzaq durmaq lazımdır. Təbii şəraitdə, fermer təsərrüfatlarında olsalar da, təbii qidalarla yetişdirilən toyuqların ətinin faydalı xüsusiyyətləri çoxdur. Toyuq əti tam bir heyvan zülalıdır. Toyuq əti bütün vacib amin turşularını, qığırdaq zülallarını və insan toxumaları üçün vacib olan materiallara malikdir. Yeri gəlmişkən, toyuq ayaqlarında olan kollagen və elastin zülalları xüsusilə oynaq xəstəliklərindən əziyyət çəkənlər üçün faydalıdır. Toyuq döşünə - toyuq filesinə niyə üstünlük verilir, çünki toyuq döşünün tərkibi pəhriz üçün idealdır - çox az yağ və xolesterolu var, buna görə kilolu və ya damar problemi olanlar üçün xüsusilə faydalıdır. Toyuq ətində bol miqdarda vitamin var. Əsasən, toyuq ətinin kimyəvi tərkibi ən çox ayaqlarda və qanadlarda olan B vitaminləri ilə zəngindir. Bundan əlavə görmə qabiliyyətini artıran, immuniteti gücləndirən A və E vitaminləri də var. Toyuq əti ilə artıq çəkiyə malik olmaq mümkün deyil, eyni zamanda doyurucu xüsusiyyətə malikdir. Gəldik toyuq ətinin zərərlərinə. Əlbəttə, zərərləri də yox deyil. Mütəxəssislər ilk növbədə vurğulayır ki, toyuğun zərərindən danışarkən məhz broyler təsərrüfatlarında süni şəkildə böyüdülən, kimyəvi qatqılı yemlə bəslənən toyuqlardan söhbət gedir. Bu cür toyuqlar kimyəvi qatqılı, sintetik yemlərlə qidalandıqları üçün orqanizmə zərərlidir. Bundan əlavə, təbii şəraitdə yetişdirilən toyuqların da zərərləri var. Xüsusən toyuğun dərisi zərərlidir, çünki yağların ən çox toplaşdığı hissə məhz dəridir. Bu yağın tərkibində isə kifayət qədər xolesterol var, hansı ki, damar sərliyi, damar tıxanıqlığına səbəb olur. Köklük yaradır. Aldadıcı dad xüsusiyyəti isə ondan daha çox yeyilməsinə yol açır, nəticədə köklük, təngnəfəslik, son olaraq da ürək-damar xəstəliklərini yaradır. Ən əvvəl sağlamlıq, ikinci isə ailə büdcəsi haqqında düşünənlər, toyuq və toyuq filesi alarkən diqqətli olmalıdır. Toyuğun hansı şəraitdə bəslənildiyindən əmin olsunlar, köhnə məhsul almasınlar. Ətin təzə-köhnəliyini ayırd etmək üçün toyuq karkasını - sinə hissədən azacıq içəriyə doğru basmaq lazımdır. Əgər toyuq əti elastikdirsə, sıxılmış ət qısa müddətdə əvvəlki vəziyyətini alacaq, yox əgər toyuq köhnədirsə, sıxılmış yer çuxur kimi qalacaq. Bundan başqa toyuğun yaşlı və ya qoca olduğunu da dərisinin rəngindən seçmək olar. Beçələrin dərisi ağ, nazik və yağsız olur. Yaşlı toyuqların dərisi isə qart, sarı və yağlı olur.

**Məlahət Rzayeva**

# Uşakov Putinin fikrini səsləndirib

## “O demək istəyir ki, Azərbaycanla Ermənistan arasında razılaşmalar yalnız Rusiyanın vasitəçiliyi ilə əldə edilməlidir”

**”Rusiya diplomatiyası hər yerdə düşmən axtarır”. Bu sözləri politoloq Elxan Şahinoğlu deyib. Analitik bildirib ki, Kreml ABŞ və Avropa İttifaqının Azərbaycanla Ermənistan arasında vasitəçiliyinin Rusiya əleyhinə olmasında israrlıdır:**

”Rusiya prezidentinin beynəlxalq məsələlər üzrə köməkçisi Yuri Uşakov deyib ki, guya, Avropa İttifaqı və ABŞ Rusiyanın nailiyyətlərindən istifadə edərək Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması prosesinə müdaxilə etməyə çalışır. Putinin köməkçisi onu da bildirib ki, İrəvanla Bakı arasında münasibətlərin sabitləşməsinin əsasını Rusiya prezidentinin



şəxsi vasitəçiliyi ilə əldə olunan üçtərəfli razılaşmalar təşkil edir: ”Biz görürük ki, qeyri-regional oyunçular, xüsusən də Avropa İttifaqı və ABŞ bu işə müdaxilə etməyə çalışırlar, lakin onlar əsasən bizim nailiyyətlərimizdən istifadə edirlər. Bizim ən fəal iştirakımızla 2020 və 2021-ci illərdə əsas razılaşmalar əldə olunub”.

Uşakov Putinin fikrini səsləndirib. Kreml sahibinin fikrincə, Azərbaycanla Ermənistan arasında razılaşmalar yalnız Rusiyanın vasitəçiliyi ilə əldə edilməlidir, ”qeyri-regional oyunçular” kobud desək, burunlarını bölgəyə soxmamalıdırlar. Ancaq bu, Putinin istəyindən asılı deyil. Bakı və İrəvan Vaşinqtonla Brüsselin vasitəçiliyinin əleyhinə deyillər. Buna baxmayaraq, Putin Uşakov vasitəsilə Bakı və İrəvanı xəbərdar etmək istəyir. Bildirir ki, Kreml Vaşinqton və Brüsselin vasitəçiliyinə mane olacaq. Bu o deməkdir ki, təxribatlara hazır olmalıyıq”.

**İsmayıl**



# Asiya regionunun gələcəyi çözülür

## Əgər Astanadakı müşavirə təşkilata çevriləcəksə, bu qurumun tarixində yeni mərhələ başlayacaq

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi;**

**Türkdilli dövlətlərlə münasibətlərin qurulması və inkişaf etdirilməsi ölkəmizin xarici siyasətinin strateji xəttini təşkil edir. Ümummilli lider Heydər Əliyev müasir Azərbaycan qurub yaradarkən türk dövlətləri ilə əlaqələrə xüsusi önəm verir, bu istiqamətdə səylə çalışırdı. Məhz onun müəyyənləşdirdiyi təməllər üzərində inkişaf etdirilən bu əlaqələr hazırda özünün ən yüksək səviyyəsindədir. Eyni soy-kökə, dilə, dinə, ortaq mədəniyyətə malik olan türk dövlətlərinin bir-birinə yaxınlaşmasında, əlaqələrin qurulmasında, bir sözlə, qardaşlaşmasında Heydər Əliyevin xidmətləri danılmazdır.**

Azərbaycan ilk gündən türkdilli dövlətlərin keçirilən bütün Zirvə görüşlərində yaxından iştirak edib, ölkələr arasında birliyin yaradılmasında əhəmiyyətli təşəbbüslərlə çıxış edib. Heç də təsadüfi deyil ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası 2009-cu ildə məhz Naxçıvan şəhərində keçirilən toplantıda imzalanan Sazişlə yaradılıb. Türk Şurasının sıralarının genişlənməsində və təşkilata çevrilməsində dövlətimizin başçısı cənab İlham Əliyevin təşəbbüsləri mühüm əhəmiyyət kəsb etməkdədir. Azərbaycanın türk dövlətləri ilə əlaqələri intensiv şəkildə inkişaf etməkdədir. Təkcə bu il reallaşan Qırğızıstan və Qazaxıstan prezidentlərinin Azərbaycana, Prezident İlham Əliyevin Özbəkistana, Türkmənistana, Qırğızıstana və Qazaxıstana səfərləri, imzalanan sənədlər və əldə olunan razılaşmalar bu istiqamətdə görülən işlərin miqyasını əks etdirir. Bu baxımdan dost və qardaş Qırğız Respublikası ilə Azərbaycan arasında münasibətləri yüksək dəyərləndirmək olar. Bu il aprelin 20-də Qırğızıstan Prezidenti Sadır Japarovun ölkəmizə rəsmi səfəri zamanı imzalanan sənəd iki ölkə arasında əlaqələrin strateji xarakterini göstərir. Dövlət başçısı İlham Əliyevin Qırğızıstana səfəri, imzalanan sənədlər ikitərəfli əlaqələrin daha da dərinləşməsinə və şaxələnməsinə əhəmiyyətli töhfələr verəcək, ikitərəfli münasibətləri yeni mərhələyə daşıyacaq.

Son zamanlar dünyada baş verən hadisələr zəmnində ölkəmizin tranzit imkanları daha da genişlənib, Şərqlə Qərb arasında etibarlı nəqliyyat qovşağına çevrilib. Bu baxımdan Qırğızıstanla əməkdaşlıq ölkələrimiz arasında ticarət əlaqələrini gücləndirə bilər. Qırğızıstana dövlət səfərinə gedən ölkə başçısı İlham Əliyevi hava limanında prezident Sadır Japarovun şəxsən qarşılaması özözlüyündə səfərin əhəmiyyətini və hər iki ölkənin qarşılıqlı əməkdaşlıq əlaqələrini yeni mərhələyə çatdırmaqla bağlı qərarlılığını göstərir. Dövlət başçısı İlham Əliyevin Qırğızıstan səfəri öncəsi sovet dövründən qalan sərhəd problemlərinin həll edilməsi yolunda Özbəkistan və Qırğızıstanın razılığa gəlməsini də müsbət xəbəri saymaq olar. Güman ki, bu razılaşmanın əldə edilməsində vasitəçi kimi Türkiyə və Azərbaycan da xüsusi xidmətləri olub. KTMT çərçivəsində Ukrayna müharibəsinə qoşulmaqdan imtina edən Qırğızıstanın Azərbaycanla hərbi sahədə əməkdaşlıq müqaviləsi imzalaması gözlənilir. Daha əvvəl də analoji addımı Özbəkistan atmışdı. Bunun üzərinə Türkiyə ilə olan hərbi əməkdaşlıq müqaviləsini gəldikdə regionun yeni siyasi mənzərəsi bəlli olur. Getdikcə Türk Dövlətləri Birliyi möhkəmlənir, Türkiyə-Azərbaycan tandeminə, Türkmənistan, Özbəkistan və Qırğızıstanın da qoşulması ilə Yeni Mərkəzi Kommunikasiya yolunun nəzarəti TDT-nin nəzarətinə keçir. Məlumat üçün onu da qeyd edək ki, oktyabrın 13-də Astanada Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) 6-cı Zirvə Toplantısının plenar iclası keçirilib. Tədbirdə Prezident İlham Əliyev də iştirak edib. Dövlət başçısı daha sonra Qazaxıstan rəhbəri Qasım-Comart Tokayevlə görüşüb.

Millət vəkili Vüqar Bayramov bildirib ki, Qırğızstandan sonra Azərbaycan Prezidenti cənab İlham Əliyevin digər türk dövlətinə - Qazaxıstana işgüzar səfərə gəlməsi və Türkiyə Prezidenti R.T.Ərdoğanın da Astanada olması mühüm hadisələrdir. Deputatın sözlərinə görə, son dövrlər türk dövlətləri arasında strateji əlaqələrin sürətlə inkişaf etməsi müşahidə edilir: "Bu özünü iqtisadi münasibətlərdə də göstərməkdədir. Digər tərəfdən, inkişaf fondlarının yaradılması qarşılıqlı sərmayə imkanlarını daha da gücləndirəcək. Bu ilin ilk 7 ayında Azərbaycanın türk dövlətləri ilə ticarət dövriyyəsi 3 milyard 991 milyon dollar olub. Bu o deməkdir ki, bu ilin ilk 7 ayında Azərbaycanın türk dövlətləri ilə ticarət dövriyyəsi ötən ilin uyğun dövrü ilə müqayisədə 50 faiz artıb. Kifayət qədər ciddi artımdır. Türk dövlətləri yeni inkişaf və əməkdaşlıq mərhələsinə qədəm qoyur. İnvestisiya fondlarının yaradılması, strateji qərarlar, birgə layihələr türk dünyasını daha da yaxınlaşdıracaq və bütövləşdirəcək".

**Millət vəkili Hikmət Babaoğlu da vurğulayıb ki, Astanada keçirilən Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin 6-cı Zirvə Toplantısı dünyada baş verən mühüm dəyişikliklər kontekstində baş tutub:** "AQEM özlüyündə Asiya əhalisinin yüzdə 90-nı əhatə edən dövlətlərin birliyi kimi çıxış edir. Bu isə eyni zamanda həm də Asiya iqtisadiyyatının təqribən həmin potensialda inteqrasiya potensialı deməkdir. Ona görə də bu toplantıda müzakirə olunan məsələlər Asiya regionun gələcəyi və onun Avropa ilə əlaqələri baxımından olduqca əhəmiyyətlidir. Gündəmdə olan əsas məsələlərdən bir də AQEM-nin statusu ilə bağlıdır. Əgər bu müşavirə təşkilata çevriləcəksə, bu qurumun tarixində keyfiyyətcə yeni mərhələ başlayacaq və daha səmərəli fəaliyyət göstərmək imkanları yaranacaq. AQEM bəzən Asiyanın ATƏT-i kimi təqdim edilir. Ona görə də Azərbaycanın bu konfransda iştirakı bir neçə aspektdən olduqca əhəmiyyətlidir. Qeyd etmək lazımdır ki, beynəlxalq plarformanın inteqrasiyası üçün rəsmi Bakı mühüm logistika və qovşaq yaratmağı bacarıb. Hazırda isə yeni reallıqlar kontekstində nəqliyyat-kommunikasiya əlaqələrinin dərinləşməsi və optimallaşması üzrə tamamilə yeni bir dəhliz təklif edilir. Bu da Zəngəzur dəhlizidir. Zəngəzur dəhlizi orta vektor üzrə bütün növ kommunikasiyalarn məsafəsini 300 km qısaltmaqla operativ əlaqələr və inteqrasiya təmin etmək imkanlarına sahibdir. Prezident İlham Əliyev AQEM zirvəsindəki çıxışında bir daha bu məsələyə toxundu".

**İsmayıl**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# "Nazirin müəllimləri gözdən salması təhlükəli tendensiyadır"

## Kamran Əsədov: "Son 10 il ərzində orta məktəblərə 80 mindən çox müəllim işə qəbul edilib. Deməli, sizin imtahanlar doğru deyil"

**Elm və təhsil naziri Emin Əmrullayev bəzi müəllimlərin bilik səviyyəsinin aşağı olmasından şikayətlənib. Nazir REAL TV-yə müsahibəsində etiraf edib ki, müəllimlərin sertifikasiya imtahanlarında iştirak edən 11 min müəllimdən iki min nəfəri kvadratın perimetri veriləndə onun sahəsini hesablaya bilməyib.**

E.Əmrullayevin bu açıqlaması müzakirələrə səbəb olub. Orta məktəblərdə dərs deyən 2 min müəllimin sadə suala cavab tapa bilməməsi kəskin tənqidlərə tuş gəlib. Bildirilir ki, savadsız müəllimlərin məktəblərə ayaq açması savadsız nəslin yetişməsinə gətirib çıxara bilər.

**E.Əmrullayevin açıqlamasını şərh edən təhsil eksperti Kamran Əsədov isə "Şərq"ə açıqlamasında deyib ki, müəllimlərin aşağı nəticə göstərməsi hazırkı Elm və Təhsil Nazirliyinin və müəllim yetişdirən universitetlərin günahıdır**: "Ölkənin 4432 orta ümumtəhsil məktəbində 142 min müəllim var. Müəllimlərin 12 mini, yəni ibtidai sinif müəllimləri Elm və Təhsil Nazirliyi tərəfindən sertifikasiya imtahanına cəlb olunub. Nəticələr isə ürəkaçan deyil. Amma burada ittiham edəcəyimiz şəxs heç bir halda müəllimlər olmamalıdır. Məktəbdə bir müəllimin biliyi zəifdirsə, onu yetişdirən sistemdir.

İndiki heyət israrla iddia edir ki, təhsil sistemində mövcud problemlər əvvəlki dövrdən qalıb. Yəni nəzərdə tuturlar ki, bu problemlər keçmiş təhsil naziri Misir Mərdanovun dövründə yaranıb. Bu qədər gülməli fikir ancaq "Planet Parni iz Baku"nun tamaşalarında ola bilər.

Axı 2013-cü ildən etibarən təhsil sistemində sizsiniz!?.

Misir müəllim 1998-2013-cü ildə təhsil naziri olub və müstəqilliyin ilk illərində təhsil sistemində ciddi problemlər var idi. Onun dövründə qanunvericilik aktları hazırlandı, struktur dəyişiklikləri edildi.

Bəli, bu dövrdə ehtiyacdan artıq müəllim qəbulu həyata keçirilib, diplomu dövlət nümunəli olmayanların işə qəbulu həyata keçirilib.

O dövrdə bu sənədlərin sistem ilə yoxlanması mümkün olmayıb.

Axı düz 10 ildir təhsil sistemini siz idarə edirsiniz, nə dəyişib?

Bugünkü problemlərin kökündə keçmiş sistemin yaratdığı problemlər durursa da, uğurlarının da təməli o dövrdə qoyulub. Bu gün orta məktəblərdə dərs deyən müəllimlərin heç də hamısının işə qəbulu Misir müəllimin nazir olduğu dövrə təsadüf etmir.

### "Qiymət yazıb, diplom verdiyiniz məzunlara savadsız demək onların yox, nazirliyin ayıbıdır"

Son 10 il ərzində orta məktəblərə 80 mindən çox müəllim işə qəbul edilib. Bu, ümumi müəllimlərin 60 faizi deməkdir. Deməli, sizin imtahanlar doğru deyil.

Son 10 ildə 2 mindən çox müəllimə əməkdar müəllim, tərəqqi medalı vermisiniz, hansı göstəricilərə görə?

10 il ərzində nə qədər təkmilləşdirilmə təlimlərinə pul ayrılıb, milyonlarla vəsait təhsilin inkişafı, müəllim keyfiyyətinin yüksəldilməsi üçün qrant layihələrinə paylanılıb. Hanı nəticə?".

**Ekspertin fikrincə, nazirin müəllimləri gözdən salmağa yönəlmiş çıxışlar etməsi düzgün deyil. Bu, Azərbaycanın təhsil sistemi üçün çox təhlükəli bir tendensiyadır. Bu açıqlamalar dayandırılmalıdır:** "İmtahana cəlb olunan müəllimlərin hansısa bir test tapşırığını yaza bilməməsinin kökü ali təhsil müəssisələrindən qaynaqlanır. 10 il ərzində hansı universitetdə yoxlama aparılıb, keyfiyyətə nəzarət edilib?! Şaftalı sözünü düzgün yaza, kvadratın sahəsini hesablaya bilməyən müəllimlər yadplanetli deyil ki!? Onlar Elm və Təhsil Nazirliyinin nəzdində olan ali təhsil müəssisələrinin məzunlarıdır. Məktəbdə dərs deyən müəllimlərin yox, universitetdə təhsil alan tələbələrin bilik və savad göstəricilərini yoxlamaq, onları əmək bazarına savadlı kadr kimi hazırlamaq lazımdır. Qiymət yazıb, diplom verdiyiniz məzunlara savadsız demək onların yox, nazirliyin ayıbıdır. Müəllimlərin təkmilləşdirilməsi üçün keçirilən kursların heç biri keyfiyyətli deyil. Bu sahəyə ayrılan milyonlarla vəsait aidiyyəti qurum tərəfindən mənimsənilib. Nazir bir dəfə də öz müavinlərini, şöbə müdirlərini imtahana cəlb etsin görək onlar testdən keçə bilirlər!? Xaricdə təhsil almaqla deyil ki! Nazirliyin sektor müdirlərinin heç biri dövlət qulluğu imtahanından keçməyib".

**Millət vəkili Etibar Əliyev isə məsələ ilə bağlı öz fikirlərini belə ifadə edib:** "Elm və təhsil naziri Emin Əmrullayev maraqlı statistika açıqlayıb: "İmtahanda iştirak edən 10-11 min müəllimdən 2 mini kvadratın perimetri veriləndə onun sahəsini hesablaya bilmir. Burada güzəşt etmək mümkündürmü? Əlbəttə, yox. Təhsildəki hər hansı bu tip güzəştlər Vətənə xəyanətdən daha ciddi problemdir. Yəni öz fənnini bilməyən müəllim 6 yaşlı uşağın qarşısına çıxıb gələcəyini əlindən alırsa bundan pis nəsə təsəvvür edə bilmirəm".

Əgər müəllim yeni məzunlar qrupuna daxildirsə, bu acınacaqlı hala görə müəllim hazırlayan ali məktəblər cavabdehlik daşıyırlar.

Əgər müəllim çoxdanın müəllimidirsə, onda o, təkmilləşməyə cəlb olunmayıb (cəlb olunubsa, lap pis), ən əsası isə özü-özünü təkmilləşdirməyib. Ali məktəblərin birində "Kimya" imtahanında tələbələrdən Xlorun (Cl) və Dəmirin (Fe) valentliyini soruşdum, bilən olmadı. Müəllim hazırlayan ali məktəblərn birində isə 4 -cü kurs "Fizikanın tədrisi metodikası" dərsində isə məşhur Maks Plank düsturunu soruşdum, bunu da bilən olmadı. "Fəlsəfə" fənnindən keçirilən imtahanın sualları isə bizim ötən əsrin 80-ci illərində keçdiyimiz cəfəngiyyat bir elm olan "Dialektik materializm"in sualları idi. Nazirin təbirincə desək, bunlar da cinayətdir...".

**Şəymən Bayramova**

# Regionlarda sosial evlərin tikilməsi xoş xəbərdir

## Bu, həm paytaxtdakı sıxlığı azaldar, həm də regionların inkişafına təkan verər

**Şirvan şəhərində "sosial evlər"in tikilməsi planlaşdırılıb. Bununla bağlı Mənzil İnşaatı Dövlət Agentliyinə məxsus "MİDA" MMC təkliflər sorğusu elan edib. Məlumata görə, bunun üçün Şirvan şəhərinin Naxçıvan küçəsində 8,1 hektar ərazi nəzərdə tutulub.**



*"İnsanlar düşünəcək, bir halda ki, mənzil əldə etmək asandır, gedib orada yaşamaq və işləmək olar"*

Bildirilir ki, sözügedən ərazidə şəhərsalma üzrə əsaslandırılma, tikinti layihəsinin hazırlanması və müəllif nəzarəti işləri üzrə sorğuda iştirak etmək istəyənlər təkliflərini oktyabrın 27-si, saat 17:00-a qədər şirkətə təqdim edə bilər.

Qeyd edək ki, ölkədə gəlir səviyyəsi orta və aşağı olan vətəndaşlar üçün mənzillərin tikintisinə bir neçə il əvvəl başlanılıb. Sosial evlər adı alan binaların tikintisi ilk növbədə paytaxtda mənzil tələbatının ödənməsinə hədəflənsə də, bu, səbəblərdən yalnız biridir. Sosial evlərə iddia edilməsi isə bir neçə şərtə əsaslanır ki, bu sırada şəhid ailələri, müharibə veteranları, dövlət qulluğunda çalışanlar (müxtəlif müddətlərdə), ordu, hüquq-mühafizə orqanları kontingentinə aid olanlar və sair daxildir. Sosial evlərin gənclər və gənc ailələrin mənzillə təmin edilməsində əhəmiyyətli rol oynayacağı düşünülsə də, heç də belə olmadı. Bu gün sosial evlər layihəsindən yararlanan çox az sayda gənc ailə var. Bu da sosial evlərə iddialı olanların əmək haqqının azlığı səbəbindən güzəştli mənzillər üçün ipoteka krediti ala bilməməsidir. Gənc ailələr mənzilə görə aylıq ödənişləri ödəməkdə çətinlik çəkir.

Onu da qeyd edək ki, paytaxtla yanaşı, regionlarda da sosial evlərin tikintisi planlaşdırılırdı. Mənzil İnşaatı Dövlət Agentliyi regionlarda sosial evlərin tikintisi üçün torpaq sahələrinin ayrılması imkanları araşdırarkən şəhərsalma baxımından çoxmənzilli binaların tikintisi üçün əlverişli və mövcud iş yerləri mərkəzlərinə yaxın olan, habelə mühəndis kommunikasiyalarının çəkilməsində problemi olmayan ərazilərə üstünlük verib. Hazırda isə MİDA Şirvan şəhərində sosial evlərin tikintisi üçün təkliflər sorğusu elan edib. Regionlarda sosial evlərin tikintisi daha çox mənzil tələbatının ödənməsinə hesablanıb, yoxsa paytaxtdakı sıxlığın azalmasına?

**İqtisadçı Əkrəm Həsənov "Şərq"ə açıqlamasında qeyd etdi ki, sosial evlərin regionlarda inşası paytaxtdakı sıxlığın azalmasına kömək edə bilər:**

- Bakıda onsuz da sıxlıqdır. Paytaxtda sosial evlərin tikintisi burada sıxlığı azaltmır, əksinə, artırır. Güzəştli mənzillər əldə etməyin şərtləri yüngül deyil. Mənzilləri əldə edənlər adətən onları kirayə verir, aztəminatlı ailələr, regionlardan paytaxta üz tutanlar da nisbətən yüngül şərtlərlə bu mənzillərdə kirayə qalmağa razılaşırlar. Nəticə etibarilə paytaxtda sıxlıq durmadan artır. Regionlarda isə əhali sayı azalır. Yaxşı haldır ki, MİDA Şirvan şəhərində sosial evlərin tikintisinə başlamaq istəyir. Bu məsələdə vəziyyət, mövcud durum dəqiq öyrənilməlidir. Sosial evlər o regionlarda tikilməlidir, hansı ki, paytaxtdan çox da uzaq məsafədə yerləşmir və oradan paytaxta gəlib-getmək nisbətən asandır. Şəxsən mən Şirvanda sosial evlərin tikintisinə sevinərəm. Çünki Şirvan, Gəncə, Lənkəran kimi regional mərkəzdir. Məsələn, orada məhkəmə sisteminin də regional mərkəzi yerləşir. Regional təhsil idarəsi var... Ümumiyyətlə, Şirvan şəhəri həm paytaxta yaxındır, həm də inkişafa meyllidir. Şirvanda sosial evlərin tikintisi regionun inkişafına kömək edə bilər. İnsanlar düşünəcək, bir halda ki, mənzil əldə etmək asandır, gedib orada yaşamaq və işləmək olar. İş tapacaq, işləyəcək, mənzili də olacaq. Ona görə də hesab edirəm ki, sosial evlər paytaxtdan daha çox regionlarda tikilməlidir. Bu, həm paytaxtdakı sıxlığı azaldar, həm də regionların inkişafına təkan verər. İnsanlar daim, əsasən mənzil problemindən əziyyət çəkir. Mənzil oldusa, iş tapmağa da meyllənirlər, necə deyərlər, lövbər salıb yaşayırlar. Bildiyim qədər regionlarda vəkillərin say azlığından giley var. Hüquq müdafiəçilərinə, vəkillərə sosial evlər verin, gedib yaşasınlar, işləsinlər və insanların hüquqlarının müdafiəsiylə məşğul olsunlar. Niyə vətəndaş məhkəmə işiylə bağlı, tutalım, Lənkərandan, ya da Gəncədən durub Bakıya gəlməlidir? Eləcə də hansı regionda dövlət strukturlarının regional bölmələri fəaliyyət göstərirsə, orada sosial evlər tikilməlidir. Qoy əhali regiondan paytaxta üz tutmasın, öz yurdunda yaşasın və işləsin.

**Məlahət Rzayeva**

# Qida etiketi qida məhsulunun "şəxsiyyət vəsiqəsi" kimidir

## ”Bəzən etiketlərə reklam xarakterli sözlər yazılır ki, bu da rəqabət prinsiplərinə ziddir”



**1 yanvar 2023-cü ildən qüvvəyə minən ”Qida təhlükəsizliyi haqqında” Qanunda qida məhsullarının etiket məlumatları (markalama) ilə bağlı yeni tələblər müəyyənləşib. Etiketləmə tələblərinə dair əlavə müddəflar yeni qanunda yer alıb.**

Yeni qanuna əsasən, məhsulun etiketi üzərində həmin qida məhsuluna xas olmayan təsir və ya xassələr göstərilməməlidir. Çünki qida məhsulu üzərində yanlış məlumatların yerləşdirilməsi istehlakçıların aldadılmasına, dolayısı ilə onların hüquqlarının pozulmasına gətirib çıxarır. Bu da son nəticədə insan sağlamlığı və həyatı üçün müəyyən problemlər yarada bilər.

Eyni zamanda qanunun qəbulu ilə qida məhsullarına ”müalicəvi” kimi adların verilməsi ləğv ediləcək. Belə ki, hər hansı bir qida məhsulunun, o cümlədən mineral suyun etiketində həmin məhsulun insan xəstəliklərinin qarşısını alması, müalicəvi xüsusiyyətlərə malik olması haqqında məlumatlar verilməsi və ya bu cür təəssürat yaradan ifadələrin qeyd edilməsi yeni qanunla qadağan edilib.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov da piştaxtalardakı məhsulların etiketlərində yazılanlarla onların tərkibi arasında fərqlər müşahidə edildiyini təsdiq edib. Onun sözlərinə görə, bəzən etiketlərə reklam xarakterli sözlər yazılır ki, bu da rəqabət prinsiplərinə ziddir:** ”Nə üçün marketlərdə satılan məhsullardan birinin üstündə cəlbedici, çağırış mahiyyəti daşıyan sözlər yazılmalıdır? Belə sözlər bir sıra hallarda müştəriləri digər məhsulları almaqdan yayındırır.

Bəzi istehsalçılar məhsulun tərkibini oxunmaz, kiçik şriftlərlə yazır, eyni zamanda, konservantlar, qida boyaları və əlavələri haqqında məlumat vermir, rəngarəng reklam şəkillərinə yer verərək bir növ istehlakçıların diqqətini yayındırmağı bacarırlar. Nəticədə isə tərkibində çiyələk olmayan ”çiyələkli yoqurt” və ya mal əti olmayan ”mal əti sosis”ləri almış oluruq.

Qida etiketi qida məhsulunun ”şəxsiyyət vəsiqəsi” kimidir. Etiketləmə haqqında bütün istehsalçıların əməl etməli olduğu və bütün istehlakçıların isə mütləq şəkildə bilməli olduğu zəruri hesab edilən elementlər mövcuddur”.

**Şəymən**




# "Nar"dan ingilis dilini öyrənmək istəyənlər üçün əla fürsət!

**Mobil operator ”Nar” abunəçilərinə şəxsi inkişafı dəstəkləyən mobil tətbiqlərdən 70% endirimlə istifadə etməfürsəti verir. İngilis dilini yeni öyrənənlər və dil biliklərini təkmilləşdirmək istəyənlər ayda cəmi 5 AZN ödəməklə ”FluentWorlds” və 7.70 AZN ödəməklə ”Lingokids” tətbiqlərindən yararlana bilərlər.**

Üstəlik, ”Nar” abunəçiləri hər iki tətbiqi 1 ay müddətində pulsuz istifadə edib sınaya bilərlər.

Bu tətbiqlər həm uşaqlar, həm də böyüklər üçün nəzərdə tutulur.”FluentWorlds” ingilis dilini öyrənmək üçün 3D formatda real vəziyyətlər, söhbətlər və ssenarilərlə istifadəçiləri istiqamətləndirən ilk dil öyrənmə proqramıdır.”Lingokids” proqramı isə əyləncəli oyunlar vasitəsilə ingilis dilini öyrənməyə, həmçinin ünsiyyət bacarıqlarını təkmilləşdirməyə və uşaqların yaradıcı düşüncəsini inkişaf etdirməyə kömək edir.

”Nar”ın təqdim etdiyi endirimdən faydalanmaq üçün ətraflı məlumatı nar.az/fluentworlds vənar.az/lingokidssəhifələrindən əldə edə bilərsiniz.”Nar” endirimi olmadan ”FluentWorlds” üçün aylıqabunə haqqı 16.99 AZN, ”LingoKids” üçün isə 25.50 AZN-dir.Tətbiqləri ”App Store” və ”Play Store”-dan yükləmək mümkündür.

# Saxta qəndlərin tərkibində zərərli maddələr var

## ”Belə məhsulların, göstəricilərə uyğun olan standartlarının tənzimlənməsi lazımdır”

**Azərbaycanda istehsal olunan 9 adda qəndlə bağlı nöqsanlar aşkarlanıb. Bu barədə Qida Təhlükəsizliyi Agentliyindən (AQTA) məlumat verilib. Bildirilib ki, nəzarət tədbirləri zamanı ticarət şəbəkələrində satışı həyata keçirilən bir sıra istehsalçılara məxsus qənd məhsulu partiyalarının qida sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğun olmadığı, kükürd dioksid (SO2) miqdarının laborator sınaqların nəticələrinə əsasən normadan artıq olduğu müəyyən edilib.**



Qeyd olunan nöqsanların aradan qaldırılması və qida təhlükəsizliyinin təmin edilməsi məqsədilə Agentlik tərəfindən qanunvericiliyə uyğun müvafiq tədbirlər həyata keçirilib. Normativ sənədin tələblərinə cavab verməyən həmin məhsul partiyalarının ticarət şəbəkələrindən geri çağırılması ilə bağlı istehsalçılara, eyni zamanda ticarət şəbəkələrinin rəhbərlərinə həmin məhsulların satışdan çıxarılaraq istehsalçılara geri qaytarılması barədə məcburi göstərişlər verilib.

Kükür dioksidin qənd məhsullarının tərkibində ki çoxluğunun istehsal texnologiyaları ilə əlaqədər olduğunu deyən qida təhlükəsizliyi üzrə ekspert Elsevər Fərzəliyev ”Şərq”ə bildirib ki, emal texnologiyasına düzgün riayət edilməlidir: ”İstehsal zamanı sulfat turşusu ilə ağardılmanın həyata keçirilməsi, kükürd-dioksidin məhsulun tərkibində qalmasını şərtləndirir.

Texnoloji mərhələlərdə bunu məhsulun tərkibindən kənarlaşdırmaq lazımdır. Onu isə xüsusi istilik emalına məruz qoyaraq təmizləmək olar.

Lakin bu emala məruz qoyulmadığı üçün məhsul bu vəziyyətə düşür”.

Ekspert qeyd edib ki, qənd bizim gündəlik istehsal məhsulumuzdur və ondan uzaqlaşmaq qeyri-mümkündür: ”Bütün ailələrdə qənd istehlak olunur və bu, bizim xalqımız üçün vacib qida məhsulu kimi dəyərləndirilir.

Bu baxımdan da məhsul istehsalı zamanı onun tərkibindəki zərərli maddələrin miqdarını tənzimləmək lazımdır.

Bu tip məhsullarda təkcə kükürd-dioksid yox, digər qatışıqların aşkarlana biləcəyini düşünürəm. Bunun üçün də belə məhsulların, göstəricilərə uyğun olan standartlarının tənzimlənməsi lazımdır.

Yəni istehsal müəssisələrində geniş işlər görülməli və məhsulun keyfiyyət göstəriciləri yüksək səviyyədə formalaşdırılmalıdır. Belə olan halda məhsulların yüksək keyfiyyətli istehsalını gözləmək olar.

Bu səbəbdən də AQTA-nın apardığı monitorinqləri alqışlayır və belə yoxlamaların bütün məhsullara da şamil olmasını tövsiyə edirəm”.

**Nihat Müzəffər**

# Sanki bir yarış başlayıb

## Bir çox qurumlar peşəkar İT təhsil sektoruna baş vurublar



**”Son bir il ərzində ölkədə İT, xüsusilə də kibertəhlükəsizlik sahəsində mütəxəssislərin hazırlanmasında sanki bir yarış başlandığı müşahidə olunur.**

Əvvəllər bu sahədə universitetlər və az sayda qurumlar, ”Step İT Academy”, ”Code Academy” və s. bu tip qurumlar peşəkar İT hazırlığı ilə məşğul olurdular.

İndi xeyli sayda yeni qurumlar bu istiqamətdə fəaliyyətə başlayıblar.

Hətta Elm və Təhsil Nazirliyindən fərqli bir çox dövlət qurumları da peşəkar İT təhsil sektoruna baş vurublar”. Bu sözləri Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz deyib.

Ölkəmizdə bu sahədə mütəxəssis qıtlığı olduğunu vurğulayan O.Gündüz ümid edir ki, bu sektorda yeni olan iddialı qurumlar keyfiyyətli mütəxəssis hazırlığı sahəsində qarşıya qoyulan məqsədlərə çata biləcəklər.

**Şəymən**

# Ciddi problem yaşanmayacaq

## “Facebook”da izləyici sayının kütləvi azalması alqoritmlə bağlıdır




**”Facebook” bəzi istifadəçilərdə izləyici sayında baş verən kütləvi azalmalara aydınlıq gətirib. ”Facebook” rəsmisi baş verənlərin sistemin yenilənməsi ilə deyil, adi texniki səhv ucbatından olduğunu açıqlayıb.**

Amma bəzi mənbələr baş verənləri ”Facebook”un son zamanlar botlardan istifadə edənlərə qarşı apardığı siyasətlə əlaqələndirib. Bir həftə öncə bəzi ABŞ media qurumlarının hesablarında da belə bir problem baş vermişdi.

Ümumiyyətlə, son zamanlar ”Facebook” hesabatlarından görsənirdi ki, qurum botlardan istifadə edən 1.4 milyard istifadəçiyə qarşı tədbir görüb.

Son yarım ildə hətta milyarddan çox saxta ”Facebook” profilinin silindiyi bildirilirdi.

İKT üzrə mütəxəssis Elvin Abbasov isə ”Şərq”ə açıqlamasında ”Facebook”da izləyici sayının kütləvi azalmasının alqoritmlə bağlı olduğunu deyib. Onun sözlərinə görə, ”Facebook”un yeni alqoritmi uzun müddət istifadə olunmayan profilləri məhdudlaşdırır. Eyni zamanda aşkarlanan saxta profillər də sistem tərəfindən bağlanır: ”Buna da hər hansı formada maneə olmaq mümkün deyil. Əslində bu, texniki problem də hesab olunmur. Çünki daimi istifadə olunan aktiv profillərin istifadəsi ilə bağlı heç bir problem yoxdur. Amma koporativ qeydiyyatdan keçmədən ”Facebook” profilindən korporativ məqsədlə istifadə edən profillər də sistem tərəfindən aşkarlandıqda bloklanır. Bu məsələ ”Facebook” şəbəkəsinə istifadəçi marağının azalmasına səbəb olacaq qədər ciddi bir situasiya deyil”.

**Şəymən**

# Zümrüdlə Nigarın dostluğu bitdi

**Aparıcı Zümrüd Bədəlova Əməkdar artist Nigar Şabanova ilə dostluğuna son qoyub.**



Bu barədə Zümrüd bizim.media-nın əməkdaşı ilə söhbətində deyib.

Aparıcı müğənnidən incikliyini bu cür ifadə edib:

”Nigar Şabanova aparıcılıq etdiyim ”Xəbər-ətər” verilişinin mövsüm açılışının ilk qonağı idi. Xatırlayırsınızsa, digər aparıcılıq etdiyim ”Söz-baz” maqazin verişində o, ilk dəfə şəxsi həyatı ilə bağlı açıqlamalar vermişdi. Çox gözəl bilirdim ki, onun həyat yoldaşı ilə aralarında problem yaşanır və münasibətləri yaxşı deyil. Amma mən bir dost olaraq ondan bu haqda ”Xəbər-ətər”də danışmağı istəsəm də, xahiş etdi ki, danışmayım. Mən də o mövzunu açmadım. Amma özünə dönə-dönə söylədim ki, əgər sən başqa verilişdə bu mövzunu açıb danışsan, səninlə mənim dostluğum bitəcək.

Mənim efirimdən bir müddət sonra Nigar iki verilişə ard-arda çıxıb boşandığını açıqladı. Dost sarıdan ona görə bir az şanssızam. Özünün də xəbəri var ki, mən bu səbəbdən onunla olan dostluğuma son qoydum”.



# Yağın bahalaşmasına süni qiymət artımı deyə bilmərik

## “Biz əvvəlcə yağ idxalında monopoliya var, ya yox, onu araşdırmalıyıq”

**Dövlət Statistika Komitəsinin məlumatına əsasən, bu ilin yeddi ayında Yeni Zelandiyadan Azərbaycana 28 milyon 864 min dollar dəyərində 4 min 567 ton kərə yağı idxal edilib. Nəticədə Yeni Zelandiyadan gətirilən 1 kiloqram kərə yağının idxal qiyməti 6,31 dollar və ya məzənnəyə uyğun olaraq 10,74 manat təşkil edib. Sözügedən yağların bir kiloqramının qiyməti Azərbaycan bazarlarında 20 manata yaxındır. Rusiya və Gürcüstanda isə həmin kərə yağlarının qiyməti bizdəki qiymətlərdən aşağıdır.**

*İqtisadçı Xalid Kərimli ölkəmizə idxal olunan kərə yağlarının mövcud satış qiymətləri ilə bağlı ”Şərq”ə danışarkən bildirib ki, buna süni qiymət artımı deyə bilmirik. Çünki süni qiymət artımını inhisarçılar təyin edir.* Şəxs bazar payının 33 faizindən çoxuna malikdirsə, tutaq ki, o, ölkəmizə gətirilən kərə yağı biznesi üzrə 33 faizdən çox paya sahibdirsə, inhisarçı hesab edilir. Faiz göstəriciləri bundan az olduqda isə o, inhisarçı deyil və onun təyin etdiyi qiymət də sünidir: ”Bazarda da hər kəsin təyin etdiyi qiymət süni deyil. Tutaq ki, çox kiçik bir mağaza 20 manata olan məhsulu 30-40 manata satır. Buna süni qiymət artımı demək olmaz. Bazarda kimin hakim mövqeyi varsa, onun təyin etdiyi qiymət süni qiymətdir”.

**İqtisadçı vurğulayıb ki, vətəndaşlar idxalı 10 manata başa gələn kərə yağının 20 manata yaxın bir qiymətə satılmasından narazı olsalar da, onlar burdakı vergi məsələlərini bilmirlər:** ”Biz idxal qiyməti 6, 31 dollar olan kərə yağının üzərinə neçə faiz əlavə dəyər vergisi gəlib onu araşdırmalıyıq. Çünki əksər halda idxal zamanı məhsulun üzərinə əlavə 35-36 faizə qədər vergi gələ bilir. Taxıl məhsulları idxalında bu olmasa da, yağda var. Ölkəmizə idxal olunan yağ əlavə dəyər vergisindən azad olunmayıb. Ümumiyyətlə, məhsulu ölkəyə gətirən sahibkarın inhisarçı olub-olmadığını bilmədən danışa bilmərik. Biz əvvəlcə yağ idxalında monopoliya var, ya yox, onu araşdırmalıyıq. Yağı gətirənlər inhisarçıdırlarsa, burda süni qiymət artımı var. Yox əgər inhisarçı deyillərsə, deməli, yoxdur. Bu zaman İqtisadiyyat Nazirliyinin də məsələdə heç bir səlahiyyəti qalmır. O, sahibkara bir söz deyə bilmir. Hər bir halda qiymətlərə baxanda mütləq şəkildə insafən sahibkar xərclərinə də diqqət yetirmək lazımdır”.

**Günəş Mərd**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2934



## Sevginin 5 dili

### Bunu öyrənsəniz tərəfdaşınızla daha sağlam münasibətlər qura bilərsiniz

**Heç münasibətlərinizdə sevgilinizi anlamadığınız anlar olubmu? "Kimdə yoxdur?" da deyə bilərsiniz. Əgər "sevgi dili"ndə danışmağı öyrənə bilsəniz, tərəfdaşınızla daha sağlam münasibətlər qura bilərsiniz.**

"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, Amerika yazıçısı Geri Çepman təxminən 10 il əvvəl bir termin yaratdı: sevgi dili. Münasibətlərdən bəhs edən "Beş Sevgi Dili" kitabında hər kəsin sevgini fərqli qəbul etdiyini iddia edən müəllif, 5 sevgi dilinin olduğunu vurğulayır. Bu dilləri öyrənməklə siz partnyorunuzun necə hiss etdiyini və nə istədiyini daha yaxşı başa düşə bilərsiniz.

Beləliklə, sevgi dilində danışanlar partnyorlarının tez-tez "səni sevirəm" deməsinə ehtiyac duyurlar. Qeydlər buraxarkən, danışarkən və ya mesaj göndərərkən incə və səmimi ifadələr işlətmək münasibətiniz üçün faydalı olacaq. "Təşəkkür edirəm", "Çox mehribansınız" və ya "Etdiyiniz işi yüksək qiymətləndirirəm" kimi ifadələr bu dildə danışanları çox sevindirəcək.

Bu dildə danışanlar heç bir məqamın münasibətləri pozmasına icazə vermir, tərəfdaşlarına tam vaxt verirlər. Televiziya, ev işləri və telefon olmadan qarşı tərəfə tam diqqət yetirsəniz, bu dildə danışmış ola bilərsiniz.

Hədiyyənin arxasındakı mehribanlıq və düşüncə bu dildə danışanları çox sevindirə bilər. Aldığınız hədiyyənin partnyorunuza xitab etməsi və ona nə qədər dəyər verdiyinizi göstərməsi çox vacibdir.

Partnyorunuzla ev süpürmək, ərzaq mağazasına getmək, hesabı ödəmək kimi vəzifələri paylaşdığınız zaman bu dildə danışdığınızı söyləyə bilərik. Həyatlarını asanlaşdıran şeylər haqqında düşünmək onları dəyərli hiss etdirəcək.

Bu dildə danışan insanlar fiziki təması sevirlər. Əl-ələ tutmaq, qucaqlamaq, arxaya toxunmaq... Sevginizi göstərmək üçün şüurlu yollar tapın" - deyə Çepman yazır. Yazıçı hesab edir ki, toxunmağın tərəfdaşa dəyər və sevgi göstərmək üçün ən optimal yol olduğu düşünülür.

**Turan**



# "Bura ailəmizi bitirən yer oldu"

### Ancelina Colinin Bred Pittə göndərdiyi mesaj ortaya çıxdı

**Hollivud ulduzu, dünya şöhrətli aktrisa Ancelina Colinin sabiq həyat yoldaşı, məşhur aktyor Bred Pittə yazdığı mail ortaya çıxıb. "NTV.com.tr" xəbər verir ki, A.Coli boşanma səbəbini həyat yoldaşı tərəfindən fiziki zorakılığa məruz qalması, həmçinin övladlarına da atalarının fiziki zor tətbiq etməsiylə əlaqələndirirdi.**

A.Coli məhkəməyə təqdim etdiyi iddia ərizəsində şəxsi təyyarəylə səyahət zamanı B.Pittin sərxoş halda ona və uşaqlara hücum çəkdiyini qeyd etmişdi. "Tik-Tok" istifadəçisi olan bir nəfərsə A.Colinin 2021-ci ildə B.Pittə göndərdiyi mesajı ortaya çıxarıb. Bu barədə "Entertainment Tonight" internet səhifəsi xəbər paylaşıb və mesajın məhkəməyə təqdim olunan sənədlər arasına sübut olaraq daxil edildiyini bildirib.

A.Colinin mesajında "Miraval" şərab evinin satışıyla əlaqəli ifadələr yer alıb. Coli yazıb ki, bura evləndikləri, əkiz övladlarıyla qonaq qaldıqları yerdir: "Bura qocalıq illərini keçirməyi düşündüyüm yer idi. İndi bu sətirləri göz yaşlarıyla yazıram. Burada keçirdiyimiz anları daim xatırlayacağam. Amma bura həm də ailəmizi bitirən bir yer oldu. Bilirəm ki, artıq orada arzulanmayan biriyəm. Bu mesajımı aldıqda məmnun qalacağını da bilirəm".




A.Coli B.Pittin içkiyə meylliyinin ailələrini bitirdiyini də yazıb: "Bu hərəkətlər məni dərindən yaraladı". Yazılan mesajdan məlum olur ki, məşhur cütlük şərab ticarətiylə məşğul olsalar da, bu işdə iflasa uğrayıblar. İş birliyində olduqları "Page Six" şirkəti də B.Pitti fransız şərab evini qanunsuz ələ keçirməyə cəhddə ittiham edərək aktyora qarşı 250 milyon dollarlıq təzminat davası açıb. Verilən xəbərlərə görə, aktyor şərabxanadan əldə edilən gəlirləri "mənasız layihələrə" sərf edib.

**Məlahət**

## Yeni sevgilisi ilə görüntüləndi

### Aktrisa münasibətləri ilə bağlı sualları cavabsız qoyub



**Türkiyəli aktrisa Melisa Döngel yeni sevgilisi ilə ilk dəfə görüntülənib.**

**Axşam.az xəbər verir ki, cütlük Bebbekdə paparatsilərin obyektivinə tuş gəlib. Aktrisa münasibətləri ilə bağlı sualları cavabsız qoyub.**

***Qeyd edək ki, Melisa sonuncu dəfə "Kusursuz kiracı" serialında rol alıb.***

## İt sahibinin 2400 dollarını yedi

### Əsəbiləşən qadın hadisəni TikTok-da yerləşdirmək qərarına gəlib



**Zoi adlı Labrador iti sahiblərinin stolun üstünə qoyduğu 2,4 min dolları cırıb yeyib.**

**Milli.Az bildirir ki, bu barədə "Newsweek" məlumat yayıb.**

**Zoinin sahibi ərinin işdən evə gəldiyini və itin ona toxunmayacağına əmin olaraq pulu yemək masasının üstünə qoyduğunu söyləyib. Daha sonra kişi valideynlərinə baş çəkən arvadının yanına gedib və iti tək qoyub. Bir neçə saat sonra cütlük müxtəlif avtomobillərdə evə qayıdıb.**

**Ərindən bir neçə dəqiqə əvvəl evə qayıdan ev sahibəsinin dediyinə görə, əvvəlcə cırıq 100 dollarlıq əskinas tapıb. "Mən dərhal divana tərəf getdim ki, oturub Zoi ilə danışım və onun pis bir iş gördüyünü başa düşdüyünə əmin olum. Yaxınlaşanda onun yediyi və xırda-xırda cırdığı bütün digər pulları gördüm", - o deyib.**

**Əsəbiləşən qadın hadisəni lentə alaraq TikTok-da yerləşdirmək qərarına gəlib. Video qısa zamanda viral olub və təxminən üç milyon baxış toplayıb. Bəzi istifadəçilər sahibə yazıb ki, banklar zədələnmiş əskinasları qəbul edir və onların yeniləri ilə dəyişdirilməsini tövsiyə ediblər.**

**"Mən ona nifrət etmirəm. O, itdir. O, nə etdiyini başa düşmür. Və ümid edirəm ki, sabah pulun bir hissəsini qaytara biləcəyik", - qadın deyib.**

## Həkim tövsiyə verdi

### Kişi 300 hörümçəyi evinə yığdı



**Britaniyalı kişi Aaron Finiks psixi sağlamlığı naminə hörümçək kolleksiya etməyə başlayıb.**

**"Medicina" xəbər verir ki, onun yataq otağında açıq rahat gəzişən 300 hörümçək var.**

**Belə ki, kişi psixiatrın tövsiyəsi ilə psixi sağlamlığını qaydaya salmaq üçün tarantul kolleksiyası yığmağa başlayıb. Psixoterapevt onda bipolyar pozuntu aşkarlayıb və ona əyləncə üçüm maraqlı hobbi tapmağı tövsiyə edib.**

**Kişi hörümçəklərə marağı olduğundan bu işi seçib.**

**Hörümçəklər içində ən çox sevdiyi meksikan quş yeyən dişi hörümçəkdir.**

**Kişi hörümçəkləri heç də ucuz almır.**

**"Mən saatlarla dayanıb onları izləyə bilərən. Hörümçəklərin sayəsində həqiqətən mənim psixoloji vəziyyətim düzəlməyə başlayıb.**

**Elə ki, ruhdan düşən anlarım olur, yeni hörümçək alıram".**



# Xalq hiddətlənib

### Maskın fotosu Ukraynanın şərəf lövhələrindən silinib

**Rusiya-Ukrayna müharibəsində öz sülh planını açıqlayan İlon Mask ukraynalıların hədəfi olub.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, Ukraynanın liman şəhəri Odessada dünyanın ən varlı adamının fotosu Kiyevi dəstəkləyən beynəlxalq məşhurların təsvir olunduğu reklam lövhələrindən yığışdırılıb. Bu qərar Tesla şirkətinin baş direktorunun Rusiya-Ukrayna sülh planı haqqında tvit atmasından sonra verilib.

Maskın planı "ilhaq edilmiş ərazilərdə BMT-nin nəzarəti altında yeni səsvermənin keçirilməsini", Krımın Rusiyanın tərkibində saxlanılmasını, Krıma su təchizatına zəmanət verilməsini və Ukraynanın neytral qalmasını nəzərdə tutur.

"Reklam departamenti İlon Maskın fotosunu reklam lövhələrindən silir, burada Ukraynanı dəstəkləyənlərə təşəkkürümüzü bildiririk", - Odessa administrasiyası "Teleqram"a bildirib. Odessa administrasiyası həmçinin meriya işçisi tərəfindən milyarderin üzünə böyük bir göy kağız parçası yapışdırdığını əks etdirən video da yayımlayıb. Ukrayna Prezidenti Zelenski tvitterdə sorğu keçirərək bu fikrə reaksiya verib. O, izləyicilərindən hansı İlon Maskı daha çox bəyəndiklərini soruşub.

"Ukraynanı dəstəkləyən, yoxsa Rusiyanı dəstəkləyən?".

Qeyd edək ki, Avrasiya Qrupunun prezidenti, politoloq Yan Bremmer "Tesla" və "Space X" şirkətlərinin baş direktoru İlon Maskın Rusiya Prezidenti Vladimir




Putinlə telefonla danışdığını iddia edib. Bremmer "Tvitter"də yazıb: "İlon Mask mənə Ukrayna mövzusunda Putin və Kremllə birbaşa danışdığını bildirdi. O, Kremlin qırmızı xətlərinin nədən ibarət olduğunu da söylədi".

Bremmer abunəçilərinə göndərdiyi xəbər bülletenində məsələnin təfərrüatlarını açıqlayıb. O iddia edib ki, Mask Putinlə danışdıqdan sonra ona "Ukraynanın Rusiyanın ilhaq etdiyi Krımı işğal etməyə cəhd edəcəyi təqdirdə hər cür ehtimalın, o cümlədən nüvə hücumunun baş verə biləcəyini" deyib.

Bütün baş verənlərə Elon Mask "Heç kim Bremmerə etibar etməməlidir" cavabını verib. "Tvitter"dəki bu müzakirədən əvvəl Maska "Putinlə heç danışdınızmı" sualı verilib və Mask "Putinlə yalnız bir dəfə danışdım, 18 ay əvvəl idi və kosmosla bağlı idi" deyə cavab verib.

**Turan**

## 965 milyon dollar ödəyəcək

### İnternet fenomeninə ağır cəza verilib



**2012-ci ildə ABŞ-da Sandy Hook məktəbində törədilən qətliamın əsassız olduğunu deyən sui-qəsd nəzəriyyəçisi Aleks Cons 965 milyon dollar təzminat ödəmli olacaq. Bir neçə il əvvəl internet fenomeni elan edilən Cons bir çox platformadan silinib.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, ABŞ 10 il əvvəl Sandy Hook ibtidai məktəbində atışma ilə sarsıldı. Hücumda 20-si uşaq olmaqla 26 nəfər həyatını itirib.

Hadisə ABŞ-da ən dəhşətli məktəb qətliamı kimi qeydə alınıb. Bununla belə, amerikalı sui-qəsd nəzəriyyəçisi Aleks Cons hücumun hiylə olduğunu irəli sürdü və bunun üzərində israr etdi. Sui-qəsd nəzəriyyəçisi iddilarından əl çəkmədiyinə görə, 8 qurbanın yaxınları və hadisəyə müdaxilə edən FTB agenti Consu məhkəməyə verib və təzminat tələb ediblər. Münsiflər heyəti ailələri və agenti dəstəkləyib. Beləliklə məhkəmə Consun 965 milyon dollar təzminat ödəməsi ilə bağlı qərar çıxarıb. Ailələr Consun əsassız iddialarından sonra ölümlə hədələndiklərini iddia ediblər. Bəziləri hətta evlərini köçürməli olduqlarını bildirdilər. Məktəb faciəsində illərdir heç kimin ölmədiyini iddia edən Cons, mərhumların yaxınlarını böhran aktyorları kimi təsvir edib. Hətta bəzilərinin heç vaxt mövcud olmadığını iddia edib. Sui-qəsd nəzəriyyəçisinin hökmü oxunarkən məhkəmə zalında emosional anlar yaşanıb. Consun vəkili qərardan apelyasiya şikayəti verəcəklərini açıqlasa da, amerikalı sui-qəsd nəzəriyyəçisi qətliamın reallığını etiraf edib və avqust ayında baş verən oxşar hadisə ilə bağlı təəssüfünü bildirib. Belə olan halda Cons ailəyə 49,3 milyon dollar təzminat ödəməli olub.

**Turan**

## "Pişik paraziti" siyasi fikirləri də dəyişir



**Latınca adı "Toxoplasma gondii" olan tək hüceyrəli bir parazitin insanların siyasi seçimlərinin formalaşmasında rol oynadığı ortaya çıxıb.**

Vaksinsiz pişiklərin qumundan insanlara keçdiyi üçün, "pişik paraziti" adlandırılan bu orqanizm dünya əhalisinin üçdə birinə yayılıb.

"Evolutionary Psychology" elmi jurnalında yayımlanan araşdırmada, parazitin fərdlərin siyasi fikirlərində və mənimsədiyi dəyərlərdə dəyişikliklərə yol aça biləcəyi ifadə edilib.

Məqalədə "Toxoplasma gondii"yə yoluxan insanlar xüsusi bir simptom göstərmir" fikri yer alıb: "Ancaq bu şəxslərdə bir çox xəstəlik və pozuntularla bərabər davranış və şəxsiyyət fərqliliklərinə daha çox rast gəlinir".

Bu parazit sağlam adamlarda müəyyən bir simptoma səbəb olmasa da, hamilə və ya immunitet sistemi zəif insanlar üçün təhlükə yarada bilir.

**Nihat**